**İsmayıl Hacıyev**
**Elnur Kəlbizadə**

# Naxçıvanlı diplomatlar
## (Нахчыванские дипломаты)

*AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 10 yanvar 2017-ci il tarixli 01/08 nömrəli qərarı (Protokol №01) ilə çapa tövsiyə olunmuşdur.*

Naxçıvan - 2017

*Rəyçilər:* **Fəxrəddin Səfərli**
*AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor*

***Asəf Orucov***
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

**İsmayıl Muxtar oğlu Hacıyev, Elnur Həşim oğlu Kəlbizadə. Naxçıvanlı diplomatlar (Нахчыванские дипломаты).**
*Naxçıvan-2017, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 128 səh.*

Kitabda XX əsrdə Azərbaycanın diplomatiya tarixində önəmli rol oynamış naxçıvanlı siyasi və dövlət xadimlərinin diplomatik fəaliyyətlərindən bəhs olunur.

Kitab tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

***Kitabın cildi N.Fətəliyev tərəfindən dizayn edilmişdir.***

4700000000
053-2017

**© "Əcəmi" 2017**

## *DİPLOMATİK FƏALİYYƏTLƏRİ İLƏ QÜRUR DUYULAN GÖRKƏMLİ NAXÇIVANLILAR*

*Diplomatiya peşə deyil. O, rəssamlıq, bəstəkarlıq, nəqqaşlıq, xalçaçılıq kimi xüsusi fitri istedad tələb edən bir incəsənət sahəsidir. Burada bir eskizin, bir notun, bir nəqşin, bir ilmənin yanlışlığı bütün əsəri korlaya bilər. Ona görə də deyirlər ki, diplomat olmaq olmur, diplomat kimi doğulmaq lazımdır.*

*Müasir dövr Azərbaycan tarixşünaslığının qarşısında duran ən mühüm məsələlərdən biri də diplomatiya tariximizin öyrənilməsi, Azərbaycan tarixində mühüm rol oynamış diplomatların həyatının və fəaliyyətinin təhlil edilməsidir. Tarixən Azərbaycana görkəmli şəxsiyyətlər bəxş etmiş Naxçıvan diyarı həm də bir sıra görkəmli diplomatların vətənidir.*

*Naxçıvan diyarı elə bir geostrateji ərazidə yerləşir ki, həmişə qonşu və böyük dövlətlərin maraq dairəsinə düşmüşdür. Vaxtilə coğrafi cəhətdən Azərbaycanın mərkəzi ərazilərindən olan bu diyar müxtəlif dövrlərdə tarixin hökmü, böyük dövlətlərin marağı ucbatından ya həmin dövlətlərin tərkibinə qatılmış, ya da müstəqil olmuşdur.*

*XIX və XX əsrlər Naxçıvan diyarı üçün daha çətin və keşməkeşli olmuşdur. Rusiya imperiyası Cənubi Qafqazı, eləcə də Azərbaycanı işğal edəndə burada mühüm yerlərdən birini Naxçıvan diyarı tuturdu. Birinci Rusiya-Qacarlar İranı müharibəsindən sonra iki dövlət arasında bağlanmış Gülüstan müqaviləsi ilə Naxçıvan işğal edilməsə də, həmin dövlətlərin sonrakı müharibəsi nəticəsində bağlanmış Türkmənçay müqaviləsi ilə Naxçıvan ərazisi də, Rusiya imperiyasının tərkibinə qatılmışdır. Naxçıvan təkcə işğal olunmamış, onun həm də demoqrafik həyatında dəyişikliklər baş vermişdir. İşğaldan sonra Qacarlar İranından və Osmanlı dövlətindən minlərlə erməni ailələri İrəvan,*

*Qarabağla yanaşı Naxçıvan ərazisinə də köçürülmüşdür. Bundan sonra naxçıvanlıların faciəsi və ərazi itirmələri baş vermişdir. Böyük dövlətlərin himayəsinə sığınan, onlardan maddi və mənəvi kömək alan erməni daşnakları Naxçıvana yiyələnmək arzusunu reallaşdırmağa çalışmışlar. İmperialist güclərin yardımı ilə Azərbaycan torpaqlarında öz dövlətlərini yaradan erməni daşnakları Naxçıvana da göz dikmişdilər: "Naxçıvan və Şərursuz Ermənistan dövləti yaşaya bilməz", - fikrini ortaya atan ermənilər XX əsrin əvvəllərində hərbi yola da əl atmışdılar.*

*Azərbaycanın, eləcə də Naxçıvanın siyasi və dövlət xadimləri öz fəaliyyətləri ilə erməni daşnaklarının xülyalarına qarşı çıxmışdılar. Haqlarında bəhs etdiyimiz naxçıvanlı siyasi və dövlət xadimlərinin heç birinin diplomatik təhsili olmamışdır. Lakin onların düşdüyü vəziyyət, Naxçıvana qarşı olan haqsız iddialar onları diplomat etmişdir. Heç onlardan bəzilərinin bu sahədə kifayət qədər təcrübəsi də yox idi. Bununla belə, fəaliyyət dairələrində Azərbaycanın, eləcə də Naxçıvanın ərazi bütövlüyü uğrunda əzmlə mübarizə aparmışdılar.*

*Naxçıvanlı diplomatlar deyəndə ilk olaraq yada Behbud ağa Şahtaxtinski düşür. Onun da heç bir diplomatik, eləcə də başqa bir ciddi təhsili olmamışdır. Lakin onun Naxçıvanın muxtariyyətinin əldə edilməsi, Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması uğrunda diplomatik fəaliyyəti onlarla diplomatların işini kölgədə qoya bilir. Naxçıvanın taleyi, onun erməni işğalına düşməməsi bu görkəmli eloğlumuzun sayəsində olmuşdur.*

*İbrahim Əbilov, Məhəmməd xan Təkinski, Bəhram xan Naxçıvanski Azərbaycanın milli maraqlarının qorunmasında peşəkar diplomatlar kimi fəaliyyət göstərmişlər. Onlar həm də*





*diplomatik fəaliyyətlə sıx bağlı olmuşlar. Bəziləri az, bəziləri bir qədər çox bu sahə ilə məşğul olmuşlar, həmişə də diqqəti cəlb etmişlər.*

*Bir sıra görkəmli eloğlularımız isə müxtəlif peşə sahibləri olduğundan diplomatik fəaliyyətlə geniş məşğul olmasalar da, onlar da bu fəaliyyətlərini milli maraqlarımıza, ərazi bütövlüyümüzün qorunması uğrunda mübarizəyə həsr etmişlər. Əli Səbri Qasımovun ingilis və amerikan nümayəndələrinə verdiyi sərt cavablar, qəti mövqe və ciddi fəaliyyət əsl diplomata xas olan keyfiyyətlərdir. Eyni ilə bu sözləri digərləri haqqında da deyə bilərik.*

*Ümumiyyətlə, XX əsrin əvvəllərində Naxçıvan diyarının məkrli düşmənlərin əlinə keçməməsində, Azərbaycan ərazisi kimi qorunub saxlanılmasında haqqında bəhs olunan naxçıvanlı siyasi və dövlət xadimlərinin diplomatik fəaliyyətlərinə borcluyuq. Ona görə də onlar daima xatırlanmalı, fəaliyyətləri öyrənilməli və gənc nəslə çatdırılmalıdır.*

***Müəlliflərdən***

# MƏHƏMMƏD AĞA ŞAHTAXTILI



Taleyinin dolanbac yolları kimi dolanbacdır anadan olduğu Şahtaxtı kəndinə gedən yollar da. Deyirlər ki, Naxçıvanda üç Şahtaxtı var. Biri nə zamansa Eldənizlərin taxtının qorunaraq saxlanıldığı Əlincənin zirvəsindədir, ikincisi Cəhri kəndi ərazisində Nadir şahın nə zamansa qoşununa müraciət etdiyi məkandır, üçüncüsü isə Şərur düzündə - Kəngərli rayonunun ərazisində yerləşən bu kənddir. Şahtaxtı kəndi İsmayıl Səfəvinin şahlığa gedən yolda son qüdrətli qələbəsini qazandığı yerdir. Başqa sözlə desək, Şərur döyüşündən sonra gələcək Qızılbaş sarayının diplomatları da, sərkərdələri də, mədəniyyət xadimləri də, təbibləri də bura yığışmışdı. Bəlkə elə bu səbəbdəndir ki, sonradan bu kiçik kənd Azərbaycana görkəmli diplomatlar, sərkərdələr, həkimlər, ədiblər bəxş etdi. O insanlar isə bu kəndə əbədi bir şöhrət qazandırdılar.

Şahtaxtılı diplomatlarlardan danışarkən ilk olaraq yada düşən XX əsrin görkəmli diplomatı Behbud ağa Şahtaxtinski olsa da, görkəmli ədib, azərbaycanlı kimliyi haqqında ilk mülahizələri mətbuata və ictimai müzakirələrə çıxaran Məhəmməd ağa Şahtaxtılının da bir müddət diplomatik korpuslarda tərcüməçi kimi fəaliyyəti haqqında bəzi məlumatlar var.





1846-cı ildə Şahtaxtında anadan olan Məhəmməd ağa Şahtaxtılının Tiflis klassik gimnaziyasını bitirməsi, Almaniyanın Leypsik Unversitetinin Tarix, Fəlsəfə və Hüquq Fakültəsində, Fransanın məhşur Sarbonna Universitetinin Ali Təcrübi Təhsil Mərkəzində təhsil alması, fəaliyyət göstərməsi, rus, alman, fransız, ərəb, fars, yunan və türk dilləri ilə yanaşı qədim pəhləvi, zənd və latın dillərini bilməsi onun diplomatiya sahəsində fəaliyyətinə imkan verən əsas amillər olmuşdur. İndiyə qədər ədib haqqında yazılmış kitablarda və məqalələrdə onun həyatının 1909-1912-ci illərdəki dövrü diplomatik fəaliyyət dövrü kimi xarakterizə olunur.

Lakin qeyd etmək lazımdır ki, Məhəmməd ağa Şahtaxtılı daha əvvəl mərkəz ofisi İstanbulda yerləşən Beynəlxalq Ticarət Məhkəməsində Rusiyanın daimi nümayəndəsi vəzifəsində çalışmışdır. O nümayəndə kimi Rusiya İmperiyasını layiqincə təmsil etməklə yanaşı, həm də Osmanlı imperiyasının o zamankı daxili vəziyyəti, ictimai-siyasi həyatı ilə yaxından tanış olmuşdur. Bu dövrdə o həm də ciddi surətdə tərcümə işi ilə məşğul olmuş, Rusiyada Türkiyənin səfiri vəzifəsində çalışmış general-adyutant Əhməd Şakir Paşanın "Müsəlman dünyasında günəş tarixinin hesablanması" traktatını rus dilinə tərcümə edərək çap etdirmişdir. Akademik İ.Həbibbəyli "Məhəmməd ağa Şahtaxtlı: taleyi və sənəti" adlı kitabdakı "Məhəmməd ağa Şahtaxtılı: tale yolları və xidmətləri" adlı məqaləsində yazır ki, ədibin Əhməd Cevdət Paşanın islam dininin tarixinə dair əsərini rus dilinə tərcümə etməsi haqqında da məlumatlar vardır. M.Şahtaxtılının İstanbulda yerləşən Beynəlxalq Ticarət Məhkəməsində Rusiyanın daimi nümayəndəsi vəzifəsindəki fəaliyyəti dövrü XIX əsrin 80-ci illərinin sonuna təsadüf etmişdir.

1907-ci ildən M.Şahtaxtılının siyasi fəaliyyətində yeni bir dövr başlamışdır. Həmin il keçirilən seçkilər zamanı İrəvan quberniyasından Dövlət Dumasına deputat seçilən Məhəmməd ağa siyasi burulğanlar ərəfəsində olan Rusiyanın ictimai-siyasi həyatını yaxından izləmiş, eyni zamanda təmsil etdiyi yurdun insanlarını cəsarətlə müdafiə etmişdir.

1909-1912-ci illərdə isə o, Rusiya imperiyasının Türkiyədəki səfirliyində tərcüməçi-müxbir kimi çalışmışdır. Bu dövrdə diplomatik korpus əməkdaşı olmasının verdiyi üstünlükləri düzgün dəyərləndirməklə M.Şahtaxtılı Osmanlı imperiyasının bir sıra dövlət rəsmiləri ilə əlaqələr yaratmış, onlardan müxtəlif məsələlərlə bağlı fikirlərini öyrənmiş, eyni zamanda müsahibələr hazırlayaraq Rusiyaya imperiya mərkəzinə göndərmişdir. Belə yazılardan biri 1908-ci ildə "Russkoe slovo" qəzetində çap edilən Osmanlı imperiyasının Dini İşlər naziri Şəmsəddin bəylə müsahibəsi olmuşdur. Bu dövrdə bir sıra hərbi-siyasi əsərlərin və sənədlərin tərcüməsi ilə də məşğul olan Məhəmməd ağa Şahtaxtılının ən ciddi tərcümələrindən biri Osmanlı ordusunun baş komandanı Muxtar Paşanın yazdığı "Anadoluda 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsinin tarixi" olmuşdur. Tarixçi alim Musa Quliyevin verdiyi məlumata görə bu əsərin tərcümə olunmuş hissələri 1913-1916-ci illərdə Rusiyanın "Hərbi tarix jurnalı"nda çap olunmuşdur. Jurnalın 1913-cü ildə çıxan IV, 1914-cü ildə çıxan I – IV, 1915-ci ildə çıxan II və IV, 1916-cı ildə çıxan I və II saylarında tərcümələr hissələrlə verilmişdir. Lakin sonrakı dövrdə jurnalın fəaliyyətini dayandırması nəticəsində əsərin tam nəşri mümkün olmamışdır.

Türkiyədən qayıtdıqdan sonra Məhməmməd ağa Şahtaxtılı 1915-ci ildə yenidən bir müddət diplomatiya sahəsində tərcüməçi kimi çalışmışdır. Şövqü Novruzovun "Şərqi-Rus"un çağırışı" kitabının 44 səhifəsində yazdığına





görə o 1915-ci ildə bir müddət Rusiya Xarici İşlər Nazirliyinin Şərq şöbəsinə başçılıq etmişdir. Lakin sonrakı dövrdə aparılan tədqiqatların nəticələri göstərir ki, əslində Məhəmməd ağa Şahtaxtılı Rusiya Xarici İşlər Nazirliyi strukturunda 7-ci dərəcəli tərcüməçi kimi çalışmışdır. 1917-ci ilə qədər bu strukturda çalışan Məhəmməd ağa həmin il təqaüdə çıxmışdır. Azərbaycan Xalq Cumhuriyyəti dövründə əsasən qəzetçilik və təhsil sahələrində fəaliyyət göstərən ədib Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra XKS sədri Nəriman Nərimanovun xüsusi işlər üzrə müşaviri kimi çalışmış və akademik İsa Həbibbəylinin yazdığına görə Bakıda Şərq xalqları qurultayının keçirilməsinin əsas təşkilatçılarından biri olmuşdur.

1931-ci il dekabr ayının 12-də vəfat edən Məhəmməd ağa Şahtaxtılının məzarının məlum olmaması da ədibin diplomatik fəaliyyəti qədər maraq doğuran məsələlərdəndir.

# MƏHƏMMƏD XAN TƏKİNSKİ



O dünyaya gələndə kimsə ağlına gətirməzdi ki, iki il sonra baş verən müharibə onun taleyini bu qədər dəyişəcək, o tamamilə başqa bir mühitdə böyüyəcək və öz həyatının demək olar ki, bütün şüurlu fəaliyyət dövrünü böyüyüb boya-başa çatdığı torpaqların müdafiəsinə və tərəqqisinə həsr edəcək. O öz fəaliyyəti ilə eyni zamanda sübut edəcəkdi ki, bir məkanı, bir yeri sevmək üçün orada dünyaya göz açıb-açmamaq elə də böyük bir şərt deyil. Əsas olan səmimiyyət, cəsarət və sədaqətdir.

Məhəmməd xan Təkinski – o, 1879 və yaxud 1880-ci ildə Mərkəzi Asiyada Axal-Təki vadisində rusların türkmənlərlə müharibəsi zamanı anadan olsa da, Naxçıvanda böyüyüb boya-başa çatmış, Kəngərlilər nəslinin ən qüdrətli nümayəndələrindən biri olan II Ehsan xanın oğulluğu olmuşdur. Qeyd edək ki, son illərə qədər onun doğum tarixi dəqiq məlum olmasa da tədqiqatçı Ataxan Paşayevin Odessa vilayətinin dövlət arxivində apardığı araşdırmalar nəticəsində Təkinskinin Novorossiya Universitetinin hüquq fakültəsinin tələbəsi olarkən hazırlanmış şəxsi işini aşkarlaması bu suallara aydınlıq gətirmişdir. Qeyd edək ki, bu universitetdə Naxçıvanın XX əsr tarixində rol oynamış digər görkəmli simalar – Azərbaycan Xalq Cumhuriyyətinin Batumdakı konsul-luğunun katibi olmuş Əziz bəy Qədimbəyov, Əliqulu





xan Kəlbəlixanov, Hidayət bəy Sultanov, Həmid bəy Şahtaxtılı da təhsil almışlar.

Tədqiqatçı A.Paşayev “Məhəmməd xan Təkinski kimdir?” adlı məqaləsində yazır ki, Tiflis şəhəri birinci gimnaziyanın şagirdləri haqqında verilmiş məlumatda M.Təkinskinin atasının adı qrafasında "Ehsan xan Təkinski", qəyyumu adlı qrafada "Cəfərqulu xan Naxçıvanski" göstərilmiş, milliyyəti “türkmən”, dini etiqadı “müsəlman”, təvəllüdü “1879-cu il” qeyd olunmuşdur.

1881-ci il yanvar ayının 12-si günü baş vermiş rusların türkmənlərlə Göytəpə qalasını ələ keçirmək uğrunda apardıqları mübarizə zamanı bütün qohumları rus əsgərləri tərəfindən məhv edilləndə, onu bir saman tayasının yanında rus ordusunun polkovniki olan II Ehsan xan tapmış və oğulluğa götürmüşdür.

AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin yazdığına görə sonralar Naxçıvana gələn II Ehsan xan bu uşağı da özü ilə bərabər gətirmiş, gələcəkdə Azərbaycan tarixində özünəməxsus rol oynayacaq Məhəmməd xan Təkinski Cəfərqulu xan, Rəhim xan və Hüseyn xan Naxçıvanskilərin əhatəsində böyümüşdür.

Tiflis birinci kişi gimnaziyasını, 1908-ci ildə isə Odessada yerləşən Novorossiya İmperator Universitetinin hüquq fakültəsini bitirən Məhəmməd xan Təkinskininin 1918-ci ilə qədərki fəaliyyəti ilə bağlı məlumatlar demək olar ki, yox səviyyəsindədir. Moskvada Rusiya Dövlət Hərbi Tarix Muzeyində və Sankt-Peterburqdakı Rusiya Dövlət Tarix Arxivində araşdırmalar aparan M.Quliyev onun gimnaziyanı başa vurduqdan sonra Rusiya ordusunda hərbi qulluqda olduğunu, Odessa vilayətinin dövlət arxivində tədqiqatlar aparan A.Paşayev isə Novorossiysk Universitetinin hüquq fakültəsini bitirdikdən sonra Güney Qafqazda hüquq-

mühafizə orqanlarında fəaliyyət göstərdiyinin güman edildiyini yazmışdır. Tədqiqatçı bunu Məhəmməd xanın 1918-ci il iyul ayının 15-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Gəncədə yaratdığı Fövqəladə Təhqiqat Komissiyasına andlı iclasçı kimi cəlb olunması ilə əsaslandırmışdır. Qeyd edək ki, Fövqəladə Təhqiqat Komissiyası 1918-ci ildə Azərbaycan hökuməti tərəfindən Birinci Dünya müharibəsinin əvvəlindən başlayaraq bütün Zaqafqaziya boyunca müsəlman əhaliyə və onların əmlakına qarşı törədilən zorakılıq, talan və soyğun faktlarının araşdırılması məqsədi ilə yaradılmışdı. Komissiyanın tərkibinə Məhəmməd xan Təkinski ilə yanaşı Ələkbər bəy Xasməmmədov, Andrey Fomiç Novatskiy, Nikolay Mixayloviç Mixaylov, Aleksandr Kluqe, İsmayıl bəy Şahmaliyev, Aley Adamoviç Aleksandroviç, Çeslav Boleslavoviç Klossovskiy, V.V.Qudvil, Abbas Əli bəy Hacı İrzayev və başqaları daxil olmuşlar.

Məhəmməd xan Təkinskinin Azərbaycan, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan qarşısında ən böyük xidmətləri isə Azərbaycan Xalq Cumhuriyyətinin mövcudluğu illərinə təsadüf edir. Parlamentin yaranmasından sonra formalaşdırılan ilk milli Azərbaycan hökumətində ilk dəfə ona müvəqqəti olaraq Xarici İşlər naziri vəzifəsini həyata keçirmək həvalə olunur. Yeddicildlik Azərbaycan tarixinin beşinci cildində isə Azərbaycan Respublikası Dövlət Arxivinin sənədinə əsasən (ARDA, f. 970, siy. 1, iş 149, v. 13.) Məhəmməd xan Təkinski həm də Azərbaycan Xalq Cumhuriyyəti Parlamentinin deputatı kimi göstərilir. Kitabda yazılır: "Azərbaycan parlamentinin üzvü Məhəmməd xan Təkinski 1919-cu il yanvarın 29-da İrəvana səfir təyin edilmişdir".





1919-cu ilin yanvarında isə yəqin ki, fövqəladə dərəcədə cəsarəti, inadkarlığı, analitik təhlil qabiliyyətinin yüksəkliyi nəzərə alınaraq o Ermənistana Azərbaycan Xalq Cumhuriyyətinin nümayəndəsi kimi göndərilir və həmin ilin oktyabrına qədər bu vəzifəni şərəflə yerinə yetirir. Kitabın müəlliflərindən biri "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan" məqaləsində Təkinskinin Naxçıvanın qorunması uğrunda apardığı diplomatik mübarizələrlə bağlı yazır: "Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi Naxçıvanla bağlı hərbi səciyyəli müəyyən işləri görə bilməsə də bəzi diplomatik-siyasi yollardan istifadə edirdi. ...M. Təkinski Naxçıvanla bağlı AXC hökuməti sədrinə yazırdı ki, əgər Ermənistan Qarabağın Azərbaycana keçməsinə razılaşarsa, ingilislər Şərur-Naxçıvan rayonunu ona verəcəklər. Onun fikrincə, əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan Şərur və Naxçıvanı ermənilərə vermək olmazdı. Naxçıvan bölgəsində ermənilərin özbaşınalıqlarının qarşısının alınmasında da M.Təkinskinin böyük əməyi olmuşdur. O, bu məsələlərlə əlaqədar məlumat hazırlayaraq Xarici İşlər Nazirliyinə göndərirdi".

1919-cu il oktyabr ayının birində isə Xan Təkinski Azərbaycan Xalq Cumhuriyyəti Xarici İşlər nazirinin müavini təyin edilir. Xarici işlər nazirinin müavini olarkən Məhəmməd xan Təkinski Bakıda Polşanın Qafqazdakı nümayəndəsi Vatslav Ostrovskin, Britaniyanın Zaqafqaziyadakı ali komissarı Oliver Uordrop, Polşanın Bakıya gəlmiş fövqəladə missiyası ilə danışıqlarda Azərbaycan Xalq Cumhuriyyətinin xarici siyasətinin təmsilçisi kimi iştirak edir. Cumhuriyyətin süqutuna qədər bu vəzifəni yerinə yetirən Məhəmməd xan Təkinskinin 1920-ci ilin aprelindən sonrakı taleyi naməlumdur.

Məhəmməd xan Təkinskinin ölümü tarixi də son illərə qədər naməlum olaraq qalsa da, biz tədqiqatçı Ədalət Tahirzadə tərəfindən tərtib olunmuş "1937-1938-ci illərdə güllələnən (həbs olunan) şəxslər" siyahısında onun da adına rast gəlirik. Onun adının qarşısında "18.03.1938*, 58 yaş" yazılıb. Siyahının əvvəlində isə tədqiqatçının belə bir qeydi var: **"* Bu işarə güllələnmə tarixini bildirir".**





# BƏHRAM XAN NAXÇIVANSKİ



Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibəti ilə keçirilən konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışından: ***"Azərbaycandan ərazicə ayrı düşmüş Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşməsi üçün böyük səylər göstərən Araz-Türk Respublikasının xarici işlər naziri Bəhram xan Naxçıvanski təmsil etdiyi dövlətin ərazisinin qorunması uğrunda fəal mübarizə aparmışdır."***

Diplomatiya tariximizin ən qüdrətli simaları arasında Bəhram xan Naxçıvanski xüsusi yer tutur. İndiyə qədər aparılan tədqiqatlarda bu görkəmli şəxsiyyətin əsasən hərbiçi kimi və daxili idarəçilik sistemində fəaliyyəti daha çox qabardılsa da, 1918-1920-ci illərdə Bəhram xan Naxçıvanski bir müddət diplomatik fəaliyyətlə də məşğul olmuşdur. O dövrdə Naxçıvanda ermənilər tərəfindən törədilən qırğınların qarşısını almaq, yerli müsəlman əhalisini müdafiə etmək məqsədi ilə yaradılmış Araz-Türk Respublikasının nümayəndə heyətinin başçısı kimi Bəhram xan Naxçıvanski nəinki ADR hökumətinin nümayəndələri ilə, hətta Qafqazdakı müttəfiq qoşunlarının komandanı general V.Tomsonla, Tiflisdə Gürcüstan hökumətinin nümayəndələri ilə danışıqlar

aparmış, Naxçıvan məsələsinin Paris sülh konfransında müzakirəsinin mümkünlüyü haqqında danışıqlarda iştirak etmişdir. Tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin "Aman xan Naxçıvanski: tanımalı və tanıtmalı olduğumuz şəxsiyyət" adlı məqaləsində yazdığına görə 1872-ci ildə Naxçıvan şəhərində anadan olmuş Bəhram xan Naxçıvanskinin atası Naxçıvan xanları nəslindən olan Aman xan Naxçıvanski, anası isə Qarabağ xanı Mehdiqulu xanın nəvəsi Fatmabikə (Xanbikə) olmuşdur. Qeyd edək ki, Xanbikə məhşur şairə Xurşidbanu Natəvanın qızı idi.

Diplomatik fəaliyyətinə qədərki dövrdə ən müxtəlif vəzifələrdə - Naxçıvan Qəza Polis İdarəsində şəhər polis pristavının köməkçisi, Naxçıvan Müsəlman Məktəbinin fəxri nəzarətçisi, Naxçıvan şəhərinin başçısı, Fəxri Barışdırıcı Məhkəmənin münsiflər heyətinin üzvü işləmiş Bəhram xan Naxçıvanski Araz-Türk Cumhuriyyətinin mövcud olduğu dövrdə təkcə könüllü xalq dəstələrinin komandirlərindən biri olmamış, həm də Naxçıvan Türk Hökumətinin xarici siyasətinə rəhbərlik etmişdir. 1919-cu il yanvar ayının 25-dən başlayaraq hökumətin xarici işlər naziri təyin edilən Bəhram xan elə fəaliyyətə başladığı ilk günlərdə İrəvandan Naxçıvana gəlmiş Amerika Komissiyasını qəbul etmişdir. Komissiya ilə aparılan danışıqlar nəticəsində Naxçıvan şəhərində 50 yataqlı bir xəstəxananın açılması, 250 nəfərlik uşaq evinin yaradılması, həmçinin bu təşkilat üçün 50 min manat pul və 4 min pud buğdanın ayrılması haqqında razılaşma əldə edilmişdir. Məhz aparılan bu danışıqların nəticəsi olaraq Amerika Komissiyası qısa bir zamanda planları gerçəkləşdirməyə başlamış, Naxçıvanda 200 nəfərlik uşaq evi açılmışdır.

Hələlik Bəhram xanın diplomatik fəaliyyətində bizə məlum olan ən mühüm məqam ondan ibarətdir ki, o, 1919-cu





ilin martında Bakıya – ADR hökuməti ilə danışıqlar aparmağa gedən Araz-Türk Respublikasının nümayəndə heyətinin rəhbəri olmuşdur. Bu nümayəndə heyətinin tərkibinə Bəhram xan Naxçıvanski ilə yanaşı görkəmli dramaturq Hüseyn Cavid Rasizadə, yazıçı, jurnalist, tərcüməçi, milli-azadlıq mübarizəsinin cəfakeşlərindən biri Əli Səbri Qasımov və başqaları daxil idi. 2005-ci ildə çapdan çıxmış Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyasının II cildində qeyd olunur ki, B.Naxçıvanski 1919-cu ilin martında Bakıya gələrkən yolüstü Tiflisdə Gürcüstan hökumətinin üzvləri ilə, eləcə də Gəncədə milli istiqlal hərəkatı nümayəndələri ilə görüşərək, Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirilməsi ilə bağlı məsləhətələşmələr aparmışdır. İ.Atnurun yazdığına görə, Tiflis səfəri zamanı Bəhram xan Naxçıvanda müəyyənləşəcək sərhəd məsələləri ilə əlaqədar ingilis rəsmi dairələri ilə görüşmüşdür. Tiflisdə olarkən Bəhram xan Naxçıvanski xanlıq iqtidarından əvvəlki hökumət dövründə Araz-Türk Cumhuriyyətinin nümayəndə-ləri kimi Bakıya göndərilmiş Paşa Bayramov və Yusif bəy Qazıyevlə görüşmüş və yeni hökumətin xarici işlər naziri olması haqqında nümayəndələrə məlumat vermişdir.

Tarixçi Aydın Hacıyev "Qars və Araz-Türk respublikalarının tarixindən" kitabında qeyd etdiyinə görə, Bəhram xan Naxçıvanskinin rəhbərlik etdiyi Araz-Türk Respublikasının nümayəndə heyəti Fətəli xan Xoyski və Tomsonla, o cümlədən Naxçıvan məsələsinin Paris sülh konfransında müzakirəsinin mümkünlüyü haqqında danışıqlarda iştirak etmişdir. Məhz aparılan bu danışıqlardan sonra Azərbaycan hökümətı Araz-Türk Respublikasına polkovnik Kuquşevin başçılığı ilə 10 zabitin göndərilməsi haqqında mühüm qərar qəbul etmiş və Naxçıvana gələn zabitlər burada Naxçıvanın müdafiəsinin daha da

möhkəmləndirilməsi işində iştirak etmişlər. Aparılan danışıqlar zamanı Naxçıvan əhalisinin ağır vəziyyətini, regionun düşdüyü ağır situasiyanı Azərbaycan Xalq Cumhuriyyəti hökuməti nümayəndələrinə izah edən Bəhram xan Naxçıvanski bölgəyə təkcə zabitlərin deyil, yerlərdə vəziyyətlə tanış olmaq üçün mülki nümayəndələrin və əhalinin ehtiyaclarının ödənilməsi üçün bir milyon manat pul vəsaitinin göndərilməsinə nail olmuşdur. Məhz göstərilən bu səylərin nəticəsi olaraq Azərbaycan hökuməti Naxçıvan, Şərur, Sürməli, Vedibasar və Milistan bölgələrinə T.Makinski, R.İsmayılov və doktor Qənizadədən ibarət nümayəndə heyəti göndərmək haqqında qərar vermişdir. Tədqiqatçılar qeyd edirlər ki, hökümət nümayəndə heyəti ilə birgə bu bölgələrin müsəlman əhalisinin nümayəndələri də Naxçıvana qayıtdılar. Nümayəndələr sırasında Bağır Rzayev, Məhərrəm Əliyev, Əliəşrəf Kazımov, Hüseyn Cavid, Əsəd Manafov, Bəhram xan və Əziz xan Naxçıvanskilərin adı çəkilir.

Sonralar bir müddət Naxçıvan şəhərində general-qubernatorun köməkçisi vəzifəsində çalışmış Bəhram xan 1919-cu ilin sonlarında Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin Lənkərandakı nümayəndəsi kimi fəaliyyət göstərmişdir. 1919-cu ilin avqustunda general-mayor Həbib bəy Səlimovun rəhbərliyi altında Azərbaycan Xalq Cumhuriyyəti qoşunlarının keçirdiyi Lənkəran əməliyatı nəticəsində bölgədəki ağqvardiyaçı dəstələrin məğlubiyyətə uğradılmasından sonra Bəhram xan Naxçıvanskinin buraya nümayəndə kimi göndərilməsi onun idarəçilik məharətindən irəli gəlirdi. Qeyd edək ki, bu dövrdə Lənkəranın general-qubernatoru Cavad bəy Məlik-Yeqanov olmuşdur.

1920-ci ildə baş verən hadisələrlə əlaqədar İrana mühacirət edən Bəhram xan Naxçıvanski Təbrizdə





yaşamışdır. Tarixçi Musa Quliyevin yazdığına görə o, Təbrizdə antisovet mühacir dəstənin və "Müstəqil Qafqaz" təşkilatının üzvü olmuşdur.

Bəhram xan Naxçıvanskinin harda və nə zaman vəfat etdiyi ilə bağlı məlumatlar isə təəsüf ki, hələ də məlum deyil.

# ƏLİ SƏBRİ QASIMOV



***"Üç gün, üç gecə oturub Tiflisdə general Haskelə memorandum yazdım. ...Memorandumu generala təqdim etdim"***

Onu ən yaxşı halda yazıçı, jurnalist, tərcüməçi və Naxçıvanın azadlığı uğrunda döyüşən bir əsgər kimi xatırlayırıq çox zaman. Əslində isə Əli Səbri Qasımovu həm də vətənpərvər bir diplomat kimi xatırlamaq lazımdır. Çünki hələ 1918-1919-cu illərdə Əli Səbri Qasımov və Naxçıvanın digər vətənpərvərləri ölüm-dirim mübarizəsinə atılmasaydılar, amerikalı generallara idarəçi deyil, hərbçi olduqlarını xatırlatmasaydılar, yəqin ki, 1924-cü il muxtariyyətinin qazanılması haqqında danışmaq bir az çətin olardı. Öz taleyi uğrunda vuruşmayan xalq üçün heç bir beynəlxalq qüvvə muxtariyyət tələb etmək gücündə olmayacaqdı. Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Bu tarixi nailiyyətin baş müəllifi isə naxçıvanlılardır: Kalbalı xan, Rəhim xan, Behbud ağa Şahtaxtinski, Əli Səbri Qasımovun simasında Naxçıvan əhalisi...

Əli Səbri Qasımov 1892-ci ildə Nehrəm kəndində dünyaya göz açıb. O Nehrəm kəndində ki, hər zaman özünün qəhrəmanlığı, mübarizliyi ilə seçilən tarixi Azərbaycan kəndlərindən biri olub.





Təhsilini Naxçıvanda Məhəmməd Tağı Sidqinin "Məktəbi-tərbiyə"sində və Qori Müəllimlər Seminariyasında alan Əli Səbri Qasımovun geniş ədəbi fəaliyyəti haqqında filologiya elmləri doktoru Hüseyn Həşimlinin "Əli Səbri" adlı kitabında, bir çox müəlliflər tərəfindən yazılan məqalələrdə məlumat verilmişdir.

### *Səngərlərdən siyasi danışıqlara...*

Əli Səbri Qasımovun diplomatik fəaliyyəti Naxçıvanın və ümumilikdə, Azərbaycanın tarixi taleyinin ən çətin və keşməkeşli dövrlərindən biri hesab edilən 1918-1919-cu illərə təsadüf edir. Bu zaman Naxçıvan uğrunda gedən mübarizə, Naxçıvana ermənilərin əsassız ərazi iddiaları Əli Səbri Qasımovu lazım gəldiyi anda əldə silah doğma yurdun müdafiəsinə qalxmağa vadar etmişdir. Bizə qədər yazılan məqalələrdə onun diplomat fəaliyyətinin daha çox Amerika generalı Haskellə görüşü məqamı göstərilmişdir. Lakin Naxçıvanın və naxçıvanlıların mənafeyinin əzmkar müdafiəçisi kimi Əli Səbri Qasımov təkcə Amerika generalı Haskellə deyil, Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri Nəsib bəy Yusifbəyli, Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Məmməd Yusif Cəfərovla görüşlər keçirmiş, 1919-cu il sentyabrın 9-da Naxçıvan, Ordubad, Şərur, Sürməli, Vedibasar mahallarının əhalisi adından hazırlanaraq Azərbaycan Xalq Cümhuriyyətinin başçılarına göndərilən sənədə imza atmışdır.

### *O, Amerika generalına siyasətçi deyil, hərbçi olduğunu etiraf etdirdi...*

Əli Səbri Qasımovun Amerika generalı Haskellə Tiflis görüşündə səslənən fikirlər, sadəcə, alovlu bir vətənpərvərin deyil, eləcə də hərbin və siyasətin qarşılıqlı təsirini yaxşı bilən

bir diplomatın fikirləridir. Tarixçi alim Musa Quliyev "Tariximizin qəhrəmanlıq mücahidi Əli Səbri Qasımov haqqında bəzi qeydlər" adlı məqaləsində yazır ki, Haskelə naxçıvanlılar adından memorandumu təqdim edən Əli Səbri Qasımov demişdir: "Əgər bu tələblər qəbul olunmasa, naxçıvanlılar öz istiqlaliyyətlərini əldə silah qoruyacaqlar".

Qeyd edək ki, Naxçıvan əhalisi adından Amerika generalı Haskelə memorandum təqdim edilməsinin səbəbi regiona hərbi qüvvə kimi gələn Amerika nümayəndələrinin idarəçiliyi ələ almaq cəhdləri, buna nail ola bilmədikləri təqdirdə isə tarixən müsəlmanların və Azərbaycan türklərinin yaşadıqları əraziləri, o cümlədən Naxçıvan, Ordubad, Şərur, Vedibasar, Sürməli və digər əraziləri ermənilərin idarəçiliyinə vermək niyyətləri olmuşdur.

Qeyd edək ki, hələ bir müddət öncə ingilislərin dəstəyi ilə Naxçıvanda yaradılmasına cəhd göstərilən "erməni idarəçiliyini" süpürüb atmış naxçıvanlılar bu diyarın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu elan etmişdilər. Qafqaza gələrək Tiflisdə qərargah yaradan Amerika generalı Haskel isə Naxçıvan ətrafında bitərəf bölgə yaratmaq və burada Amerika valiliyi təsis etmək məqsədilə avqust ayında Bakıya gedərək Azərbaycan hökuməti ilə danışıqlar aparmış və hökumətlə 12 bənddən ibarət razılıq əldə edilmişdi. Türk tarixçisi İbrahim Ethem Atnurun "Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1920)" adlı kitabında ilk razılaşmanın şərtləri ilə tanış olarkən məlum olur ki, Azərbaycan hökuməti, sadəcə olaraq, müvəqqəti general-qubernatorluğun yaradılması ilə razılaşmışdır. Bundan əlavə, razılaşmada general-qubernatorluq ərazisində məhkəmə, dəmir və şose yolları, poçt və teleqraf, milli təhsil məsələlərinin Naxçıvanda mövcud olan Milli Şuranın səlahiyyətində olduğu, general-





qubernatorluq büdcəsinin Azərbaycan xəzinəsi tərəfindən təmin edildiyi, ərazidə rəsmi pul vahidinin Azərbaycan pulu olacağı, Bakı-Culfa dəmir yolunun inşaat sahəsinin Azərbaycanın nəzarətində olacağı da əksini tapmışdır.

Lakin Tiflisə qayıtdıqdan sonra Haskel Azərbaycanın və Naxçıvanın mənafeyinə zidd, ermənilərin isə əsassız iddialarına şərait yaradacaq 21 maddəlik yeni bir layihəni imzalayaraq Azərbaycan və Ermənistan hökumətlərinə göndərmişdi. Az sonra ermənilərin təkliflərini alan Haskel Dərələyəz ərazisinin yaradılacaq bitərəf bölgəyə deyil, Ermənistana aid edilməsi, bitərəf bölgədə Ermənistanın imtiyazlı tərəf kimi tanınması, Azərbaycanın bölgəyə pul göndərməsinin qadağan edilməsi, Bakı-Culfa dəmir yolu xəttinin Azərbaycan tərəfindən inşasına icazə verilməməsi, Zəngəzurun erməni bölgəsi kimi tanınması ilə razılaşmışdır. Belə bir şəraitdə Haskel Azərbaycan hökumətini də təhdid edir, ona Şimal təhlükəsinə qarşı yardım etməyəcəyini bildirirdi. Məhz bu vəziyyətdə Əli Səbri Qasımov və Əsgərov soyadlı bir nəfər Araz vadisi müsəlmanlarının nümayəndələri kimi sentyabrın ortalarında Tiflisdə general Haskellə görüşmüşdülər. Bundan əvvəl isə Əli Səbri Qasımov burada Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri Nəsib bəy Yusifbəyli ilə görüşmüş, Azərbaycan Xalq Cümhuriyyətinə bağlılıqlarını ifadə etmişdi.

İndiyə qədər yazılan məqalə və tədqiqat əsərlərində memorandumdakı maddələrin sayı iki cür göstərilir: 10 və 17. "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan", "Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1920)" adlı əsərlərdə maddələrin sayının 10 olduğu göstərilir. Qeyd edək ki, Azərbaycan Respublikası Mərkəzi Dövlət Ən Yeni Tarix Arxivinin sənədlərinə əsaslanan bu müəlliflərin göstərdiyi rəqəmin doğru olduğu daha ağılabatandır.

Memorandumda Araz vadisindəki müsəlman bölgələrində referendumun keçirilməsi, bölgə əhalisinin yalnız Paris Sülh Konfransında bölgənin Azərbaycana aid olmasının təsdiqlənməsinə qədər Amerika general-qubernatorluğunu qəbul etməsi və sair məsələlər əksini tapmışdı.

Məhz Əli Səbri Qasımovun əzmkarlığı və gətirdiyi dəlillər qarşısında general Haskel maraqlı bir etiraf etmişdi. Biz oxucularımıza bu görüşü Əli Səbri Qasımovun yazdığı "Xatirələr, duyğular" adlı memuarının dili ilə çatdırmaq istərdik. Beləliklə, "Azərbaycan" ədəbi-bədii jurnalının 11 noyabr 1982-ci il tarixli sayında çap olunan "Xatirələr, duyğular" adlı memuarda Əli Səbri Qasımov yazırdı: "1919-cu ildə Antanta qoşunları Zaqafqaziyanı işğal edərkən ordu komandanı Amerikan generalı Haskel idi. O zaman Ermənistanda hakimiyyət daşnak partiyasının əlinə keçmişdi.

Naxçıvanda gərgin vəziyyət yaranmışdı, camaat ancaq Zəngəzur yolu ilə Bakıya və Tiflisə gedə bilirdi.

Naxçıvanlılar həmin yolla yaşlı bir kişini – Əsgərov soyadlı birisini mənim yanıma göndərdilər. Üç gün, üç gecə oturub Tiflisdə general Haskelə memorandum yazdım.

...Memorandumu generala təqdim etdim. Tərcüməçilər orda yazılanları generala çatdırdılar.

O, fikrə getdi. Mən pəncərədən çöl tərəfə baxırdım. General başını aşağı salıb nə isə düşünürdü. Nəhayət, Haskel başını qaldırdı:

– Sabri cənablarına deyin ki, mən soldatam. Mənim siyasətlə işim yoxdur...

İki gündən sonra yerli qəzetlər "Naxçıvan nümayəndələri Haskelin yanında" sərlövhəsi ilə danışıqların təfsilatını çap etmişdilər. Əsgərov həmin qəzetdən bir neçəsini alıb Naxçıvana qayıtdı".





***Azərbaycan hökuməti Naxçıvan əhalisinin istəmədiyi planda iştirak etməyəcək...***

Qeyd edək ki, bundan sonrakı dövrdə Amerika nümayəndələri ilə Naxçıvanda aparılan danışıqlar və yerli əhalinin ciddi müqaviməti nəticəsində amerikalılar Naxçıvanda məqsədlərinə nail ola bilmədilər. Naxçıvan əhalisinin ciddi müqaviməti özü də çətin vəziyyətdə olan Azərbaycan Xalq Cümhuriyyətinə bu plandan imtina etmək üçün əsas verdi. Belə ki, Azərbaycan hökuməti amerikalılara general-qubernatorluğun qurulması ərəfəsində belə bir cavab verdi: "Azərbaycan hökuməti Naxçıvan əhalisinin istəmədiyi bu planda iştirak etməyəcək".

Tarixçi Nail Əliyev "Əli Səbri Qasımov – unudulmaqda olan diplomat, döyüşçü, yazıçı" məqaləsində "Azərbaycan" qəzetinin 1919-cu ildə çapdan çıxmış 193-cü sayından Əli Səbri Qasımovun Transqafqaz ali komissarı Haskellə dialoqdan maraqlı bir məqamı sitat gətirir: "Naxçıvan əlində silah öz istiqlalını son nəfəsinədək qoruyacaq. Biz Ermənistan adlı hökuməti tanımırıq. Bütün gücümüzlə belə hökuməti ona görə rədd edirik ki, biz təyini-müqəddərat istəyirik... Bu, bizim hüququmuzdur, onu heç kimə güzəşt etmərik.

Özünə azadlıq alan xalq hətta Azərbaycan hökumətinə ixtiyar verməz ki, onun xüsusi arzusuna riayət etməyib taleyini həll etsin, bu, mütləq nəzərə alınmalıdır".

Bəli, Əli Səbri Qasımovun bütün naxçıvanlıların arzusunu ifadə edən "təyini-müqəddərat" tələbindən sonralar onun həmyerlisi, digər bir görkəmli diplomatımız Behbud ağa Şahtaxtinskinin muxtariyyət tələbləri doğdu. O muxtariyyət ki, Naxçıvanda azərbaycanlı kimliyini qorudu. O azərbaycanlı kimliyi isə dünyaya bütün dövrlərin ən böyük azərbaycanlısı

olan dahi Heydər Əliyevi bəxş etdi. O dahini ki, Naxçıvanın tarixi keçmişini və muxtariyyətinin əsaslarını gözəl bilirdi və bu bilik XX əsrin 90-cı illərində Naxçıvanı işğaldan və təcavüzdən qorudu. O tarixi ki, onu gözəl bilməsək, coğrafiyamızı başqaları müəyyənləşdirər.





# BEHBUD AĞA ŞAHTAXTİNSKİ



Son illərə qədər həyatı və siyasi fəaliyyəti haqqında məlumatların çox məhdud və ziddiyyətli şəkildə yer aldığı tariximizdə Behbud ağa Şahtaxtinskinin həqiqi yeri 2011-ci il fevral ayının 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı Sərəncamdan sonra müəyyənləşdi. Və yaxud fəaliyyəti və tarixi taleyimizdə oynadığı rolu ilə özünün özünə müəyyənləşdirdiyi yer bizə də məlum oldu.

Onun haqqında yazılan yazıları, elmi məqalələri və kitabları oxuduqca bir neçə məqam diqqətimizi çəkdi. Bu məqamlardan ən birincisi isə 1881-ci ildə Şərur rayonunun (indiki Kəngərli) Şahtaxtı kəndində bəy-ağa ailəsində anadan olmuş Behbud Şahtaxtinskinin əhalinin aşağı təbəqələri, xüsusilə fəhlə və kəndlilər arasında yüksək nüfuzunun olmasıdır. 1859-cu ildə çar hökumətinin apardığı kameral siyahıya əsasən, Şahtaxtinskilər haqqında komissiyanın belə bir qərarı vardır: “1859-cu ildə aparılan siyahıyaalmaya görə, onlar bəy kimi qeyd olunmuşlar. Komissiyanın üzvləri hamısı bir səslə hələ onların ulu babalarının da zadəgan olduğunu təsdiqləmişlər. Şahtaxtinskilərin Qazaxlar tayfasına mənsubluğunu və ulu babalarının - Ağacir ağanın varisləri

olduqlarını qeyd etmişlər. Bu nəsildən indiyədək heç kim bəylik hüququndan məhrum edilməmişdir". Bəlkə də, ona irsən damarlarında axan qanla keçən vətənpərvərlik, öz xalqının hər bir nümayəndəsinə qarşı olan böyük sevgisi imkan vermişdi ki, Behbud ağa siniflər arasında antaqonizmin təbliğinin aradan qaldırılması adı altında yuxarı siniflərin məhv edildiyi cəmiyyətdə yüksək nüfuzunu qoruyub saxlasın.

Kəngərlilərə-Şahtaxtılılara məxsus ziyalılıq, liderlik qabiliyyəti isə Behbud ağa Şahtaxtinskinin artıq 24 yaşında Bakıda kontor qulluqçuları ittifaqının yaradıcılarından birinə çevrilməsinə, 36 yaşında Bakı Soveti İcraiyyə Komitəsinin, Bakı Xalq Komissarları Soveti Fövqəladə Komissiyasının üzvü, "Hümmət" təşkilatı Mərkəzi Komitəsinin sədri olmasına imkan vermişdi.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra xalq ədliyyə komissarı vəzifəsini yerinə yetirən Behbud ağa Şahtaxtinski eyni zamanda Azərbaycan SSR-in RSFSR-də fövqəladə nümayəndəsi olmuşdu. Onun heç bir diplomatik təhsili, heç orta və ali təhsili də olmamışdır. Lakin onun fitri istedadı və həyatda qazandıqları hər cür təhsil səviyyəsindən yüksəkdə dayanırdı.

Behbud ağa Şahtaxtinskinin müxtəlif sahələrdəki çoxşaxəli fəaliyyətinə diqqət yetirəndə, həqiqətən də, şahidi olursan ki, onun diplomat kimi formalaşmasında üç amil – irsiyyət, mühit və zərurət, başqa sözlə desək, elə həyatın özü mühüm rol oynamışdı. Axı müəllimlərin və kitabların öyrədə bilmədiklərini həyat özü öyrədir. Uğurlu diplomatın sahib olmalı olduğu uzaqgörənlik, analitik təhlil aparmaq və mübarizlik keyfiyyətləri ona irsən mənsub olduğu şanlı Şahtaxtinskilər nəslindən keçmişdi. Mühit amili ona siyasi prosesləri dərindən öyrənməsini və baş verən proseslərin milli məqsədlər istiqamətinə yönəldilməsini öyrətmişdi. Əslində,





uğurlu dövlət xadiminin, siyasətçinin və diplomatın problemləri imkana çevirmək bacarığını biz həm onun 1920-ci ilin iyul-sentyabr aylarında Azərbaycan haqqında, habelə Qafqaz, Türkiyə və İrandakı vəziyyətlə əlaqədar V.İ.Leninə yazdığı ətraflı məruzəsində, həm RSFSR ilə Azərbaycan SSR arasında hərbi-iqtisadi ittifaq haqqında müqavilənin imzalanması zamanı, həm də 1921-ci ilin Moskva və Qars danışıqlarında görürük.

Onun tariximizə diplomat kimi düşməsinin üçüncü amili isə, təbii ki, yaranmış zərurətlə bağlı olmuşdur. Belə ki, o zaman Türkiyə və Rusiya arasında aparılan danışıqlarda Naxçıvan məsələsinin Azərbaycan üçün taleyüklü məsələ olması, digər tərəfdən kifayət qədər savadlı və dünyagörüşlü, bolşevik ideyasını daşımaqla yanaşı, həm də vətənpərvər olan insanların azlığı Behbud ağa Şahtaxtinski şəxsiyyətinin diplomat kimi formalaşmasının zərurəti idi.

Naxçıvanın tarixi taleyi üçün əhəmiyyətli rola malik beynəlxalq Moskva müqaviləsinin imzalanması zamanı Azərbaycanın, eyni zamanda Naxçıvan əhalisinin maraqlarının ən yüksək səviyyədə müdafiəsi, şəksiz ki, ilk növbədə, Behbud ağa Şahtaxtinskinin adı ilə bağlı olmuşdur. Təsadüfi deyildir ki, tarixə 16 mart müqaviləsi kimi daxil olan RSFSR – Türkiyə müqaviləsinin ən əhəmiyyətli maddələri Batum və Naxçıvanla bağlı olan ikinci və üçüncü maddələr idi. Məhz Behbud ağa Şahtaxtinskinin gərgin səyləri nəticəsində müqavilənin üçüncü maddəsi və kiril əlifbasının ardıcıllığına uyğun olaraq, 1(V) əlavəsi Naxçıvan vilayətinin statusunu və təqribi sərhədlərini müəyyənləşdirirdi. Naxçıvan məsələsinin həllindəki roluna görə, Nəriman Nərimanov Moskva danışıqlarına ezam edilmiş Behbud ağa Şahtaxtinskiyə yazırdı: "Naxçıvana görə çox sağ ol! Görürsən, sən artıq işin içinə girmisən və işi düzgün

aparırsan. Bu, məni sevindirir". Azərbaycan SSR-in o zamankı xalq xarici işlər komissarı M.D.Hüseynov da Moskva müqaviləsinin əhəmiyyəti ilə bağlı digər dövlətlərin nümayəndələri ilə birlikdə B.Şahtaxtinskiyə də teleqram göndərmişdi.

Behbud ağa Şahtaxtinskinin bir diplomat kimi uzaqgörənliyinin digər bir nümunəsi Qars müqaviləsinin imzalanması zamanı üzə çıxmışdır. Doğrudur, bir çox tədqiqatçılar bu gün də 1921-ci il Qars danışıqları zamanı Türkiyə Cümhuriyyəti ilə Qafqaz respublikalarının ayrı-ayrılıqda müqavilə bağlamasına qarşı Behbud ağa Şahtaxtinskinin çıxış etməsini tənqid edirlər. Belə ki, 18 gün davam edən Qars danışıqları zamanı Türkiyə onunla Qafqaz respublikaları arasında ayrı-ayrılıqda müqavilə-lərin imzalanmasına dair mövqeyində təkid etsə də, vasitəçi rolunda Rusiya bununla razılaşmırdı.

O zaman danışıqlarda iştirak edən B.Şahtaxtinskinin Rusiya nümayəndəsinin mövqeyini müdafiə edərək türk nümayəndələrinin bu istəyinə qarşı çıxdığı qeyd olunur. Lakin, bəlkə də, Behbud ağa Şahtaxtinskinin o zaman atdığı və ilk baxışdan bir az yanlış görünən bu addım olmasaydı, bu gün 1921-ci ilin Qars müqaviləsi ikitərəfli müqavilədən o tərəfə keçməyəcək, beynəlxalq müqavilə statusunda olmayacaqdı. Məhz Behbud ağa Şahtaxtinskinin vahid çoxtərəfli müqavilənin bağlanmasının Cənubi Qafqaz respublikaları ilə yanaşı, Türkiyə üçün də qarşılıqlı surətdə faydalı olduğunu diplomatik ustalıqla əsaslandırması və Qars müqaviləsini bir tərəfdə Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR, digər tərəfdə isə Türkiyənin imzalaması Qars müqaviləsinin çoxtərəfli beynəlxalq müqavilə kimi müəyyənləşməsinə şərait yaratmışdı. XX əsrin əvvəllərində atılan bu uzaqgörən addımdan XX əsrin sonunda Azərbaycan





xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvanın xeyrinə, Azərbaycanın xeyrinə böyük müdrikliklə bəhrələnmişdi.

Behbud ağa Şahtaxtinskinin həyatı ilə bağlı ən çox diqqətçəkən məqam isə bu görkəmli şəxsiyyətin ölümüdür. Onun ölümü ilə bağlı uzun illər ərzində özünə sui-qəsd etməsi fikri hakim olmuş və bir çoxları bunu şəxsi həyatındakı uğursuzluqlarla bağlamışlar. Behbud ağa Şahtaxtinski haqqında yazanlar da əksər hallarda "Şərqin sabahı" qəzetinin 31 may 1924-cü il tarixli nömrəsində Behbud ağa Şahtaxtinskinin ölümü ilə bağlı yazıya istinad etmişlər. Həmin yazıda ölüm hadisəsi haqqında yazılırdı: "Dünən gündüz saat 3-də Kərpic dalanda, ev № 25 ünvanında öz mənzilində B.Şahtaxtinski özünü odlu silahla vurmuşdur. Yol. Şahtaxtinski günorta evə gəldikdən sonra otağına girib qapısını bağlamış və saat 3-də qonşular 4 atəş səsi eşitmişlər. Onlar qapını açıb içəri girdikdə onu çarpayıda yarımçılpaq halda əlində naqan yıxılmış vəziyyətdə görmüşlər. Bütün yataq qana bulaşmışdı. Dörd güllə ilə başına atəş açılmasına baxmayaraq, o, hələ sağ olub. B.Şahtaxtinski dərhal mərkəzi xəstəxanaya çatdırılıb, bir müddətdən sonra keçinib". Məlumatı diqqətlə təhlil etdiyimiz zaman bir sıra uyğunsuz məqamların şahidi oluruq. Birinci halda, bir insanın fiziki cəhətdən özünə 4 dəfə atəş açması mümkün deyil. Bu fikri akademik İsa Həbibbəyli "Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfrans"dakı çıxışı zamanı da səsləndirmişdir.

Digər tərəfdən, naqan silahı revolver silahdır. Bəhs olunan dövrdə avtomatik olaraq ardıcıl atəş açan silah mexanizmi yaradılmamışdı. Beləliklə, naqandan atəş açmaq üçün kifayət qədər qüvvə tələb edən tətiyin hər dəfə sıxılması lazımdır. Həmçinin top mexanizmli olan naqan gülləsi

deşibkeçmə xüsusiyyətinə malik olduğu üçün heç bir halda mərminin müəyyən nöqtəyə qədər hərəkət edərək dayanması mümkün deyil. Əgər 4 dəfə (!!!!) beyinə atəş açılmışdısa, bu artıq maksimum iki atəşdən sonra beyinin müəyyən hissələrinin dağılmasına və insanın özünüidarəsini itirməsinə səbəb olmalı idi. Bu halda isə növbəti iki güllənin atılması və silahın əldə qalması mümkün deyildi. Beləliklə də, bütün hallarda Behbud ağa Şahtaxtinski kimi iradəli bir insanın özünə sui-qəsd etməsi məntiqsizdir. Bu məsələdə bütün yollar ona qarşı bolşeviklər tərəfindən məqbul bir mübarizə variantı kimi qəbul edilən və Naxçıvan arzuları gözlərində qalmış ermənilərin çox sevdiyi terrora gətirib çıxarır.





# İBRAHİM ƏBİLOV



Tarix illərin, sadəcə, ardıcıllıqla düzülüşündə baş verən hadisələrin toplusu deyil. Tarix həm də bu günün və gələcəyin müəyyənləşdirilməsi üçün qaydaları öz qatları arasında sistemləşdirib gizləyən sirr kitabıdır. Doğrudur, tarix qaydaları gizləyir, lakin tarixin bu gizləmək istəyi ört-basdır etmək deyil, qoruyub saxlamaq niyyətindən irəli gəlir. Zaman keçir və elə bir gün gəlir ki, bu gün baş verəcək hadisələri anlamaq istəyənlər dönüb keçmişə baxırlar, keçmişlə bu günün analogiyasını aparırlar və bu sirri çözürlər. "Kitabi-Dədə Qorqud" dastanında məşhur bir deyim var: "Oğuzun başına nə gəlsə, yuxuda gələr". Bu deyimdə işlədilən "yuxu" ifadəsi təkcə fizioloji mənada deyil. Yəni zaman-zaman tarixi yaddaşımız yuxuladığı üçün düşmənlərin bizi bizlə, özümüzü özümüzlə necə üz-üzə qoyduğunu unutmuşuq. Bəzən düşmənimizi unutmuşuq, o isə bizi içimizdən didməyə, parçalamağa və məhv etməyə çalışıb. Mənfur daşnak erməni ideologiyasının daşıyıcıları da bizi öz içimizdə zəhərləyiblər. Özümüz özümüzdən şübhələnək deyə! Qardaşımızdan şübhələnək deyə! Elə XX əsrin görkəmli Azərbaycan diplomatlarından biri İbrahim Əbilov kimi..

İbrahim Əbilov 1882-ci ildə Ordubadda anadan olub. Məhəmməd Tağı Sidqinin Ordubadda açdığı "Əxtər"

məktəbində təhsil almağa başlayan İbrahimin atasının vəfatından sonra ailəni dolandırmaq qayğısı onu uzaq Petropavlovska, indiki Mahaçqalaya aparıb çıxarır. Rusiyada müxtəlif ideoloji cərəyanların cövlan etdiyi bir vaxtda Bakıya gələn və burada fəhləlik etməyə başlayan Əbilov 1903-cü ildə inqilabi hərəkata qoşulur. 1904-cü ildə yaradılan Azərbaycan sosial-demokrat təşkilatı "Hümmət"in fəal üzvlərindən biri olur.

Elə məhz bu təşkilatda Nəriman Nərimanovun yaxın silahdaşına çevrilən Əbilov 1907-ci ildə Bakı Xəzər Ticarət Donanması dənizçilərinin tətilinin təşkilatçılarından biri olur. 1912-ci ildə bir müddət "Bakı həyatı" qəzetinin redaktoru işləyir. Çar polisi tərəfindən dəfələrlə həbslərə məruz qalan İbrahim Əbilov 1913-cü ildə Həştərxana sürgün edilir. İnqilabçının bəxti onda gətirir ki, o, Həştərxana sürgün olunarkən N.Nərimanov Həştərxan Şəhər Dumasının üzvü kimi fəaliyyət göstərirdi. Əbilov-Nərimanov yaxınlaşmasında bu dövr ciddi rol oynayır. 1917-ci ilin fevral inqilabından sonra Tiflisə gələn İbrahim Əbilov 1918-ci ilin sonlarında Azərbaycan Xalq Cümhuriyyəti parlamentinə deputat seçilir və parlamentin sosialist fraksiyasının üzvü olur.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR daxili işlər nazirinin müavini təyin olunan İbrahim Əbilov həmin ilin sentyabrında Bakıda keçirilən Şərq Xalqlarının I Qurultayında N.Nərimanovun tövsiyəsi ilə Şərq Xalqları Təbliğat və Təşviqat Şurasının birinci katibi seçilir. May ayının 21-də keçirilən Azərbaycan Kommunist Partiyası MK-nın Siyasi və Təşkilat Bürosunun iclasında o, Q.Musabəyov və M.Kaxiani ilə birlikdə Kommunist İnternasionalının III Konqresinə gedəcək nümayəndə heyətinin tərkibinə seçilir. 1921-ci ilin iyununda Azərbaycan nümayəndə heyətinin tərkibində





Kommunist İnternasionalının III Konqresində iştirak edir və artıq bu zaman Əbilovun Türkiyəyə səlahiyyətli nümayəndə vəzifəsinə göndərilməsi ilə bağlı məsələ Moskvada müsbət həllini tapır.

Avqustda Tiflisə gələn İ.Əbilov sentyabr ayının 21-də İtaliyanın "Reno" gəmisi ilə Batumdan Türkiyəyə yola düşür. Yol boyu türk şəhərlərində görüşlər keçirən Azərbaycan nümayəndə heyətinin rəhbəri İ.Əbilov burada Azərbaycan milli hökumətinin qurulmasında və fəaliyyətində fəal rol oynamış azərbaycanlı mühacirlərdən Azərbaycan Xalq Cümhuriyyəti dövründə əks-kəşfiyyat idarəsinin rəisi olmuş Nağı Şeyxzamanlı, Azərbaycan Xalq Cümhuriyyətinin birinci hökumət kabinetində hərbi nazir, sonralar isə Qarabağın general-qubernatoru olmuş Xosrov bəy Sultanov, Azərbaycan süvari alayının komandiri olmuş Qacar Xosrov Mirzə Bəhmənlə görüşür. Oktyabr ayının 11-də Ankaraya yetişən İ.Əbilov ertəsi gün Türkiyənin xarici işlər naziri Yusuf Kamal bəyin qəbulunda olur. Həmin görüşdə bir çox məsələlərin həllinə nail olan bacarıqlı diplomat Trabzon və Samsunda Azərbaycan konsulluqlarının yaradılmasına razılıq da ala bilir.

Həmin il oktyabr ayının 14-də Mustafa Kamal paşa ilə görüşən İbrahim Əbilov türk ordusunun qələbələrindən Azərbaycan türklərinin və islam aləminin riqqətə gəldiyini onun diqqətinə çatdırır. Mustafa Kamal paşanın isə cavabı belə olur: "Millətimiz bu həqiqətin Azərbaycan nümayəndəsi tərəfindən təsdiq edildiyini eşitməklə böyük bir səadət duyur. Rumeli və Anadolu xalqı Azərbaycan türklərinin qəlbinin onların qəlbi kimi vurduğunu bilir. ...Azərbaycan türklərinin kədəri öz kədərimiz, sevinci öz sevincimizdir".
Oktyabr ayının 22-də İ.Əbilov öz etimadnaməsini M.Kamal paşaya təqdim edir. Noyabrın 18-də gündüz saat 13:00-da isə

Mustafa Kamal paşa Ankaranın "Cəbəçi" məhəlləsində Azərbaycan səfirliyinin üzərində Sovet Azərbaycanının bayrağının qaldırılması mərasimində iştirak edir.

İlk səfir kimi Türkiyədə çox gərəkli işlər görmüş İbrahim Əbilov Mustafa Kamal Atatürkün sevimli tərəfdaşı və ailəvi dostuna çevrilə bilir. Hətta İbrahim bəyin 2-ci qızı anadan olan gün ziyafət məclisində Mustafa Kamal da iştirak edir və dünyaya gələn körpəyə Anadolu adını verərək onu özünün mənəvi qızı elan edir. İbrahim Əbilovun səmərəli diplomatik fəaliyyəti və bilavasitə iştirakı sayəsində sovet respublikaları ilə Türkiyə arasında bir sıra ikitərəfli və çoxtərəfli müqavilələr imzalanır. Naxçıvanım muxtariyyətinin təməlini qoymuş 1921-ci il Moskva və Qars müqavilələrini digər naxçıvanlı diplomat, Sovet-Türkiyə danışıqlarında Azərbaycan nümayəndə heyətinin başçısı Behbud ağa Şahtaxtinski ilə birlikdə Əbilov da imzalamışdır.

Lakin Türkiyə və Azərbaycan arasında münasibət-lərin bu dərəcədə yüksəlməsi tarixin bütün dövrlərində olduğu kimi, bir çox qüvvələrə sərfəli deyildi. Fransa və Türkiyə danışıqlarının bütün ağırlıqlarına baxmayaraq, iki qardaş xalq arasında münasibətlərin bu danışıqlara görə pozulmaması rus şovinizminin "aləti"nə çevrilmiş daşnak ermənilərini ciddi narahat etməyə bilməzdi. Hələ 1921-ci ilin dekabr ayında səfirliyin yeni fəaliyyətə başladığı bir dövrdə Bakıda və Moskvada bu narahatlıqlar açıq müstəviyə çıxır. Həmin vaxt Azərbaycanda Nəriman Nərimanova yaxın olan müsəlman kommunistlərinə qarşı başlanmış təmizləmə kampaniyası bir zamanlar qatı menşevizm tərəfdarı olmuş İbrahim Əbilovdan da yan keçmir. "Bolşevik cildinə girmiş" daşnak erməni quldurlarının və rusların əlində olan Bakı şəhər partiya təşkilatı, əsasən, 3 görkəmli azərbaycanlı diplomatı – B.Şahtaxtinski, Ə.Şirvani və İ.Əbilovu hədəfə alır.





Qurulmaqda olan və xarici təklənmə qarşısında qalmış sovet sisteminə sədaqətlə xidmət edən diplomat Kommunist Partiyası sıralarından azad edilməsi ilə bağlı xəbəri aldıqda ciddi sarsıntı keçirir. Sədaqətin, inandığı ideallarn qarşılığının iyrənc maraqlarla toqquşduğunu görən, cilddən-cildə girərək daşnak və bolşevik kreslosunda eyni zamanda oturanların namərdliklərini duyan diplomatın davranışları da sədaqəti qədər açıq, aydın və təbii olur. O qədər təbii olur ki, RSFSR-in Türkiyədəki səlahiyyətli nümayəndəliyinin katibi Mixaylov Q.Orconikidzeyə bu barədə yazır: "...partiyadan kənarlaşdırılmış bu saç-saqqalı ağarmış partiya işçisinin oturub ağladığını gördükdə, mən bizim partiya formalistlərini ədəbsiz sözlərlə xatırladım".

Yalnız bundan sonra N.Nərimanovun İ.Əbilova zamin durması ilə dekabr ayının 22-də diplomat Kommunist Partiyasının sıralarına bərpa olunur. Sonra isə Nərimanov Əbilova məktubunda belə yazır: "Bu vaxta kimi apardığınız xətti-hərəkət düzdür. Ümid edirəm, bundan sonra da səhviniz olmasın. Bir şeyi gərək unutmayaq: Rusiya və Türkiyə tərəfindən müəyyən şəxslər vardır ki, aranı qarışdırmaq istəyirlər. İndi məlum olur ki, Zaqafqaziyanın tamam əksinqilabçıları bu fikirdə birləşib, gözəl Qafqazı yenə də qan ocağına döndərmək istəyirlər".

Bütün üsullara əl atan düşmənlər münasibətlərin və qarşılıqlı etimadın itməsi üçün diplomatik nümayəndənin qorunmalı olduğu bir məclisdə İbrahim Əbilovu zəhərləyirlər. Diplomat ziyafətlərdən birindən qayıdarkən mədə-bağırsağında kəskin ağrılar başlayır. İşə Mustafa Kamal paşanın həkimləri də qarışır, onun üzərində əməliyyat aparırlar, hətta Mustafa Kamal paşa özü də xəstəxanaya gəlir. Lakin İbrahim bəyin həyatını xilas etmək mümkün olmur. O, 1923-cü il fevralın 23-də Türkiyənin İzmir şəhərində vəfat

edir. Diplomatın cənazəsini Bakıya göndərirlər və o, Bakıda dəfn olunur.

Sonralar isə baş verən hadisə ilə bağlı diplomatın qızı Anadolu xanım bu barədə deyəcəkdi: "Onda, bəlkə də, heç kəsin ağlına gəlməzdi, amma indi düşünürəm ki, yəqin, elə atamı ermənilər zəhərləyib aradan götürüblər. Onun nüfuzundan, qazandığı uğurlardan qorxaraq bu işə əl atmışlar. Anonim məktubları yazanlar da onlar idi..."

Bəli, İbrahim Əbilovu müxtəlif bəhanələrlə məhv etmək istəyirdilər. Çünki o, çoxlarının bacarmadıqlarını bacarırdı, çünki o, Azərbaycan-Türkiyə dostluğunun təməl bağlantısını çiyinlərində daşıyan insan idi. Tarix isə hər kəsi öz yerinə qoyur. Proseslərin sonrakı gedişatı da göstərdi ki, İbrahim Əbilovu sədaqətsizlikdə günahlandıranların adı tarixin ən dərin qatlarına gömüldüyü halda, İbrahim bəyin hər iki qızı İkinci Dünya müharibəsində könüllü olaraq cəbhəyə getdi. Anadolu Əbilova Berlinə qədər döyüşlərdə əsgərlərə tibbi xidmət göstərdi.

İbrahim Əbilovun Türkiyədə zəhərlənməsini millətə gözdağı kimi istifadə etmək, iki qardaş xalqı düşmənə çevirmək istəyənlər niyyətlərinə yetişə bilmədilər. Çünki Ağqoyunlu-Osmanlı müharibələrindən bu yana baş verən qardaş qırğınlarını kimlərin və niyə qızışdırdığı xalqın gen yaddaşına həkk olunmuşdu.

Diplomatın nə varlığını, nə də yoxluğunu nifaq toxumlarını səpmək üçün bəhanəyə çevirə bilməyənlər İkinci Dünya müharibəsində onun qəbrini dağıtmış və mumiyalanmış meyiti oğurlamışdılar. Bu barədə Anadolu Əbilova müsahibələrindən birində deyirdi: "Müharibədən sonra cəbhədə ailə qurduğum həkim İskəndər İsmayılovla Bakıya qayıtdım. Atamın məzarını ziyarətə gedərkən qəbrin yerlə-yeksan olunduğunu gördük... Nə qədər axtarılsa da,





dəmir qutuda basdırılan mumiyalanmış cəsəd tapılmadı. Deyəsən, İbrahim bəyin qəbri də həmin qara qüvvə üçün təhlükə yaradırdı. Əgər belə olmasaydı... Bu vəhşiliyi ermənilərdən başqa kim törədə bilərdi?"

Görkəmli diplomatın simvolik məzarı isə Fəxri Xiyabanda 1981-ci ildə bir daha quruldu. Azərbaycanın və Türkiyənin əlaqələrini sarsılmaz və əbədi edən xalqımızın ümummilli lideri Heydər Əliyevin göstərişi ilə...

# ZİYA YUSİF TALIBZADƏ



Ziya Yusif Talıbzadənin adı mənbələrdə daha çox 1921-1922-ci illərdə Naxçıvan İnqilab Komitəsinin hərbi komissarı kimi səslənsə də bəzi müəlliflər onun həm də xarici işlər komissarı kimi fəaliyyətindən bəhs edirlər.

Qeyd edək ki, 1877-ci ildə Tiflisdə anadan olmuş Ziya Yusif Talıbzadə tanınmış ədib Abdulla Şaiqin qardaşıdır. O, ilk təhsilini Zaqafqaziya ruhani idarəsinin nəzdindəki Rüşdiyyə məktəbində almış, XIX əsrin sonlarında isə İranın Məşhəd şəhərində ali dini təhsilə yiyələnmişdir. Dini təhsilini Bağdadda tamamladıqdan sonra 1899-cu ildə Bakıya gələn Ziya Yusif türk, ərəb, fars və rus dillərini mükəmməl bilmişdir.

Bakıda pedoqoji fəaliyyət göstərdiyi dövrdə müxtəlif əsərlər yazan və tərcüməçiliklə məşğul olan Ziya Yusif 1907-ci ildə Quranın Azərbaycan türkcəsində nəşr olunmuş üç cildlik nüsxəsini Osmanlı sultanı II Əbdülhəmidə təqdim etmək üçün milyonçu Hacı Zeynalabidin Tağıyev tərəfindən Türkiyəyə göndərilmişdir. Sonralar siyasi həyatda aktiv şəkildə iştirak edən Ziya Yusif Türkiyədə hərbi təhsil almış, Balkan müharibəsində və Birinci Dünya müharibəsi illərində türk ordusunun tərkibində Qafqaz cəbhəsində vuruşmuşdur. 1918-ci ildə Qafqaz İslam ordusunun tərkibində Azərbaycan





Xalq Cumhuriyyətinin qurulmasında fəal iştirak edən Ziya Yusif bir müddət Osmanlı dövləti nümayəndə heyətinin başçısı kimi Təbrizdə fəaliyyət göstərmişdir.

1920-ci ildə Azəraycanda sovet hakimiyyətinin qurulmasından sonra həbs edilən Ziya Yusif Nəriman Nərimanovun zəmanəti ilə həbsdən azad edilmiş, onun böyük təcrübəsi və hərbi bacarığı nəzərə alınaraq Naxçıvana hərbi komissar təyin edilmişdir. Məlum olduğu kimi 1921-ci il yanvarın 21-də dövlət hakimiyyətinin ali orqanı Naxçıvan Diyar İnqilab Komitəsi yaradılmışdı.1921-ci ilin fevral ayından Naxçıvan inqilab Komitəsinin üzvü kimi fəliyyətə başlayan Ziya Yusif general rütbəsində hərbi komissar kimi bu əzəli Azərbaycan torpağının daşnak Ermənistanından müdafiə edilməsində xüsusi şücaət göstərmişdir.

1921-ci ilin oktyabr ayında isə Naxçıvan SSR Xalq Komissarları Sovetinin tərkibində ərzaq, torpaq, maliyyə, səhiyyə, maarif, daxili işlər, hərbi işlər, fəhlə-kəndli müfəttişliyi xalq komissarlıqlarından başqa xalq xarici işlər, rabitə, əmək, daxili ticarət, sosial təminat, ədliyyə, xarici ticarət, fövqəladə komissiya, xalq təsərrüfatı şurası və hərbi tribunal komissarlıqları da yaradılır. Bu dövrdə Ziya Yusif Talıbzadənin adı həm də qısa müddət ərzində xarici işlər komissarı kimi çəkilir. Bu barədə H.Həsənov "Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti" adlı kitabında yazır "1920-ci ildə o, N.Nərimanovun xahişi ilə Azərbaycana gələrək Naxçıvanın xalq xarici işlər komissarı təyin olunmuşdur. Onun türk paşaları ilə yaxşı əlaqələri Naxçıvanın təhlükəsizliyini möhkəmlətməyə xidmət etmişdir. Bir müddət sonra Ziya Yusif Talıbzadə Naxçıvandan Türküstana köçərək Ənvər Paşa ilə birlikdə basmaçılar hərəkatına qoşulmuşdur."

Görünür, xarici işlər komissarlığı yaradılan zaman yaranmış gərgin vəziyyətdə Ziya Yusifin ərəb, türk, fars və rus dillərini yaxşı bilməsi, həm Qacarlar dövlətində, həm də Türkiyədə yaxşı əlaqələrə sahib olması onun bu vəzifəni icra etməsi üçün müəyyənedici amil olmuşdur.

Lakin Naxçıvanı erməni millətçiləri və daşnaklar qarşısında ləyaqətlə müdafiə edən Yusif Ziya bolşeviklərin onlara qarşı liberal siyasəti ilə razılaşmamış 1922-ci ilin axırlarında Bakıya gələrək Nəriman Nərimanovdan Sovet İttifaqının sərhədlərini tərk etmək icazəsi istəmiş və bu barədə rəsmi sənəd almışdır.

Bir müddət sonra Ziya Yusif Talıbzadə Naxçıvandan Türküstana köçərək Ənvər Paşa ilə birlikdə basmaçılar hərəkatına qoşulmuşdur. Həmin dövrdə o, Z.V.Toğan ilə tanış olaraq sıx əlaqələr saxlamışdır. O, elə bu mübarizlərin sıralarında 1922-ci ilin avqustunda şəhid olmuşdur.





# QASIM BƏY CAMALBƏYOV



Qasım bəy Abbas-qulu bəy oğlu Camalbəyov – XX əsrin əvvəllərində siyasi və diplomatiya tarixində özünəməxsus xidmətləri olan diplomatlarımızdan biri.

Onun həyatı və ictimai siyasi fəaliyyəti də yaşadığı dövr kimi ziddiyyətli olmuşdur. Lakin özünün siyasi istedadı və fərdi diplomatik xüsusiyyətləri nəticəsində Qasım bəy Camalbəyov həm Rusiya İmperiyası dövründə, həm Azərbaycan Xalq Cumhuriyyətinin hakimiyyəti illərində, həm də Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra ictimai-siyasi proseslərin mərkəzində yer almağı bacarmış, mövcud quruluş və ictimai-siyasi şəraitdən asılı olmayaraq Azərbaycan uğrunda özünün doğru bildiyi istiqamətlərdə fəaliyyət göstərmişdir. Onun ictimai və siyasi diplomatik fəaliyyətində uğur qazanmasının başlıca səbəblərindən biri də təhsili ilə bağlı olmuşdur. Belə ki, 1881-ci ildə Naxçıvan şəhərində dünyaya göz açan Qasım bəyi atası Abbasqulu bəy 7 yaşında olarkən mədrəsəyə oxumağa göndərmiş, sonralar isə o, təhsilini Naxçıvanda Azərbaycan, rus və fars dillərində təlim verən "Məktəbi-tərbiyə"də davam etdirmişdir. Qeyd edək ki, 1896-cı ildə fəaliyyətə başlayan bu məktəb XX əsrin 30-cu illərinə qədər Naxçıvanda fəaliyyət göstərmiş və burada dövrün bir çox ziyalıları təhsil almışlar. Bu məktəbdə

Ordubadlı şair, Məhəmməd Tağı Sidqidən dərs alan Qasım bəy türk və fars dillərinə mükəmməl yiyələnmiş, onun sonrakı dövr diplomatik fəaliyyətində də bu dilləri mükəmməl bilməsi əhəmiyyətli rol oynamışdır. İki il bu məktəbdə təhsil aldıqdan sonra o şəhər dördillik məktəbində təhsilini davam etdirmiş, 1901-ci ildə isə İrəvan Müəllimlər Seminariyasında imtahan verərək xalq müəllimi rütbəsi almışdır. 1901-1911-ci illərdə İrəvan quberniyasının müxtəlif kəndlərində müəllim işləyən Qasım bəy Camalbəyov elə bu dövrdən başlayaraq gizli siyasi fəaliyyətə qoşulur. 1905-1907-ci illərdə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən qətliamlarla əlaqədar olaraq Qasım bəy Camalbəyov Naxçıvana qayıdır. XX əsrin əvvəllərindən başlayaraq bütün Rusiya imperiyasında kütləvi surətdə yayılan sosial-demokrat ideyaları Qafqaza da yol tapır. Bəhs olunan dövrdə Qasım bəy Camalbəyov Naxçıvanda və Culfada yaradılan Rusiya Sosial Demokrat Fəhlə Partiyasının özəylərinin qurulmasında fəal iştirak edir və hətta bir müddət bu təşkilatda təftiş komissiyasının rəhbəri kimi fəaliyyət göstərir.

1912-ci ildə pedoqoji fəaliyyətdən uzaqlaşan Qasım bəy Camalbəyov fars dilini yaxşı bildiyinə görə Persiyanın (İranın) bir bankının Culfa şöbəsində tərcüməçi işləməyə başlayır, bir il sonra isə həmin bankın İran şəhərlərindən birində yerləşən şöbəsində fəaliyyətini davam etdirir. Lakin görünür Qasım Camalbəyovun siyasi fəaliyyəti ilə əlaqədar olaraq tezliklə onun işdən azad olunması haqqında Bankın Petroqraddakı idarəsindən göstəriş gəlir.

Özünə qarşı təhlükəni hiss edən Qasım bəy Camalbəyov gizli şəkildə Bakıya getmək istəyərkən həbs olunur və Krasnovodska sürgün edilir. Qasım bəyin sürgündən sornakı həyatından bəhs edən tədqiqatçılar qeyd edirlər ki, tezliklə sürgündən qaçmağı bacaran Qasım bəy





Bakıya gəlir və Cəfər Axundov adlı bir şəxsin yardımı ilə “Rapid” mexanika zavodunda gizli surətdə yaşamağa başlayır.

Apardığımız bəzi araşdırmalar göstərir ki, Cəfər Hacı Şeyx Həsən oğlu Axundov əslən Daşkəsəndən olmuş, lakin Naxçıvanın Nehrəm kəndində doğulmuşdur. O, 1903-cü ildən RSDFP-yə daxil olan “Hümmət” partiyasının menşevik üzvü və Azərbaycanda ilk marksist dərnəklərini quranlardan biri idi. Məlumat üçün qeyd edək ki, 28 may 1918-ci ildə Tiflisdə Azərbaycanın “İstiqlal Bəyannaməsi” qəbul edilərkən həm də Azərbaycan Milli Şurasının üzvü olan Cəfər Axundov səsverməde bitərəf qalıb. O, zaman müstəqilliyə səs verməyən ikinci deputat isə “İttihad” partiyasının rəhbərlərindən biri Sultanməcid Qənizadə olub.

Bir neçə ay Bakıda qeyri-leqal şəkildə yaşadıqdan sonra Qasım bəy Camalbəyov yenidən həbs olunur, lakin bu dəfə də həbsdən qaçaraq dəniz yolu ilə Həştərxana gəlir, burada XX əsrdə Naxçıvan torpağının ölkəmizə bəxş etdiyi digər bir görkəmli diplomat İbrahim Əbilovu tapır və onun yanında sığınacaq əldə edir.

Azərbaycan Xalq Cumhuriyyətinin qurulmasından sonra isə Qasım bəy Camalbəyov əvvəlcə Tiflisdə fəaliyyət göstərən Milli Şuranın üzvlərindən biri, sonralar isə parlamentin deputatı olur. Maraqlıdır ki, Q.Camalbəyov Milli Şura tərkibinə daxil olarkən burada Cəfər Axundovu əvəzləmişdir. Onun şuraya daxil olma məsələsi 1918-ci il iyunun 1-də Tiflisdə keçmiş Canişin sarayında H.Ağayevin sədrliyi ilə keçirilən Müsəlman Milli Şurasının üçüncü iclasında müzakirə edilmişdir. Yəqin ki, “İstiqlal bəyannaməsi”nin qəbulu zamanı bitərəf qalan C.Axundov sonradan Milli Şuranın tərkibindən çıxmışdır. Milli hökumətin Gəncədəki fəaliyyəti zamanı da Q.Camalbəyov

Milli Şuranın üzvü kimi fəaliyyət göstərmişdir. Çünki, 1918-ci ilin iyun ayının 17-də qəbul olunmuş "Azərbaycan Milli Şurasının ikinci müvəqqəti hökumətin heyəti haqqında qərarı"nda Milli Şuranın digər üzvləri ilə bir sırada Qasım bəy Camalbəyovun da adı çəkilir.

1918-ci il dekabrın 7-də açılan Azərbaycan Xalq Cumhuriyyəti parlamentinin sosialist fraksiyasında təmsil olunan Qasım bəy Camalbəyov parlamentin işində fəal iştirak etmiş, Müəssisələr Məclisinin çağırılması üzrə mərkəzi komissiyanın üzvü olmuşdur. Qeyd edək ki, 1918-ci il dekabrın 7-də açılan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində sosialistlər 12 deputatla təmsil olunurdular. Onlar Qazax qəzasından deputat seçilmiş A.Səfıkürdskinin sədrliyi ilə Müsəlman Sosialist Fraksiyasını yaratmışdılar. Fraksiyaya digər solçu qruplarla yanaşı, sağ hümmətçilər - Səməd ağa Ağamalıoğlu, Əli Heydər Qarayev, İbrahim Əbilov (bir çox mənbələrdə onun soyadı Əbilzadə kimi göstərilir) və Qasım Camalbəyov daxil idilər. Bəzi arxiv sənədlərindən məlum olur ki, parlamentin deputatı kimi fəaliyyət göstərdiyi illərdə Q.Camalbəyov Bakıda Qala – 27 (Крепостная, 27) ünvanında yerləşən mənzildə yaşamışdır.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra isə fars dilini mükəmməl bilməsi və əvvəllər bir müddət İranın müxtəlif şəhərlərində çalışması ilə əlaqədar olaraq Qasım bəy Camalbəyov Təbriz şəhərində Naxçıvanın ilk konsulu kimi fəaliyyət göstərmişdir.

XX əsrin 30-cu illərinin repressiyaları bu diplomatımızdan da yan keçməmiş, Qasım bəy Camalbəyov 9 yanvar 1938-ci ildə Bakıda qətlə yetirilmişdir.





# İSMAYIL BƏY CAMALBƏYOV



Naxçıvanın tarixinin, bəlkə də, ən ağır, ən çətin dövrləridir o illər. Nəhəng imperiyaların parçalanması ərəfəsində quduzlaşan düşmənlərlə üz-üzə qalmış, ana Vətəndən – Azərbaycandan ayrı düşmüş Naxçıvan XX əsrin 18-20-ci illərində mətanətlə döyüşmüşdür. Naxçıvanlılar mətanətlə döyüşmüşlər – həm döyüş meydanında, həm də siyasət, diplomatiya meydanında. Bu döyüş adi bir döyüş, bu mübarizə adi bir mübarizə olmamışdır. Bu mübarizə təkcə Naxçıvan uğrunda, Azərbaycan uğrunda deyil, həm də türkçülük uğrunda, İslam uğrunda idi. Bu mübarizənin tərəfdarlarının bir qismi özlərini elə "Mücahidin" adlandırmışdılar. 1915-ci ildə Naxçıvan və Culfada yaradılan "Mücahidin" adlı milli partiyanın dörd lideri – M.Mirheydərzadə, İ.Camalbəyov, K. Səfərbəyov və R.Səfərbəyov o zaman düşmən qüvvələrə, xüsusilə erməni quldur dəstələrinə qarşı mübarizədə önəmli rol oynamışlar. Partiyanın liderlərindən biri olmuş İsmayıl bəy Camalbəyov siyasət – diplomatiya meydanında Naxçıvan uğrunda mübarizə aparmışdır.

Gələcəkdə adını Azərbaycanın diplomatiya tarixinə yazdıracaq İsmayıl bəy Abbasqulu bəy oğlu Camalbəyov 1883-cü ildə Naxçıvan şəhərində anadan olmuş, məktəb təhsilini də burada almışdır. 1918-ci ilin fevralında

Zaqafqaziya Komissarlığını (1917-ci il noyabrın 11-də Xüsusi Zaqafqaziya Komitəsini əvəz etmiş Zaqafqaziya hökuməti) Zaqafqaziya seyminin (qanunvericilik orqanı) əvəz etdiyi və Zaqafqaziyanı müstəqil dövlətlərə parçalamaq uğrunda fəaliyyətin gücləndiyi dövrdə Naxçıvanın növbəti daşnak hücumlarından etibarlı müdafiəsini təşkil etmək üçün İ.Camalbəyov mübarizənin ön sıralarında olmuş, erməni quldurlarına qarşı xalq dəstələrinin təşkil edilməsində ciddi rol oynamışdır. Tezliklə liderlik qabiliyyəti ilə bölgədə böyük nüfuz qazanmış İsmayıl bəy Camalbəyov 1915-ci ildə yaradılan "Mücahidin" partiyasının liderlərindən birinə çevrilir. XX əsrin 20-ci illərində isə o, Naxçıvanın Makuda ilk konsulu kimi diplomatik fəaliyyət göstərmişdir.

S.Sadıqov "Naxçıvan Muxtar Respublikası tarixindən" kitabında yazır ki, 20-ci illərdə Naxçıvan SSR-in hüquq və səlahiyyətləri daha geniş olmuş, qonşu İran və Türkiyə dövlətləri, Zaqafqaziya respublikaları ilə diplomatik və iqtisadi əlaqələr konsulluq və nümayəndəliklər vasitəsilə həyata keçirilmişdir. Naxçıvanın Maku, Xoy və Təbriz şəhərlərində konsulluqları, Türkiyənin Qars şəhərindəki RSFSR Konsulluğu yanında Naxçıvan müvəkkilliyi yaradılmışdı. Türkiyənin Naxçıvanda hərbi nümayəndəliyi 1924-cü ilin iyulunadək, İranın Naxçıvandakı konsulluğu isə 1938-ci il noyabrın 17-dək fəaliyyət göstərmişdir. Makuda İsmayıl bəy Camalbəyov, Təbrizdə Qasım bəy Camalbəyov Naxçıvan SSR-in ilk konsulları olmuşlar. Naxçıvan SSR-in Bakı, Tiflis və İrəvan şəhərlərində də nümayəndəlikləri yaradılmışdı. Əziz Şərif 1922-ci ilin yanvarında Gürcüstan SSR-də Naxçıvanın nümayəndəsi təyin edilmişdi.

Qeyd etmək lazımdır ki, hələ Sovet hakimiyyətinin qurulmasından əvvəl ən çətin dövrlərdə Naxçıvanın Maku ilə sıx əlaqələri olmuşdur. 1918-ci ilin yazında – Bakının





daşnakların və eserlərin əlində olduğu bir dövrdə Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xan Naxçıvanski o zaman türklərin tabeliyində olan Maku xanlığına getmiş, burada Maku xanının vasitəsilə türk komandanlığı ilə əlaqə yaratmış və Naxçıvana türk hərbi dəstələri yeridilməsi barədə danışıqlar aparmışdı. 1921-ci il yanvarın 19-da Vəlibəyovun Anadoluda Kazım Qarabəkir paşaya təqdim etdiyi məktubdan isə görünür ki, o zaman Naxçıvanın müstəqilliyini tanıyan dövlət və siyasi qurumlar içərisində Maku xanlığının da adı var.

Məktubda yazılırdı: "Naxçıvanın müstəqilliyini Ermənistan, Ukrayna, Dağıstan Sovet respublikaları, Maku xanı və Təbriz şəhərinin hakimi tanımışlar".

1921-ci ilin yanvarında Şahtaxtıda yerləşən XI Qırmızı Ordunun 106-cı polkunun zabitləri arasında qiyamın baş verməsi, fövqəladə komissarlığın və türk qoşunu rəhbərliyinin bütün tədbirlərinə baxmayaraq, 1921-ci il yanvarın 10-dan 11-nə keçən gecə təxminən 300 nəfər əsgər və zabitin Şahtaxtı körpüsündən İrana – Maku ərazisinə keçməsi Maku xanlığı ilə Naxçıvan arasında əlaqələri pisləşdirmişdi. Əsgər və zabitlərin İranda olan denikinçilərə qoşulub soyğunçuluq və quldurluqla məşğul olmalarından narazı qalan Maku xanı Murtuzaqulu xan Naxçıvanla əlaqəni kəsmişdir. Məhz belə bir dövrdə İsmayıl bəyin əlaqələrin bərpasında xidmətləri olmuşdur.

Makuda konsul kimi fəaliyyət göstərdiyi dövrdə Azərbaycanın mənafeyi naminə, Naxçıvanın mənafeyi naminə mübarizə aparmış İsmayıl bəy, bəlkə də, elə bu səbəbdən XX əsrin 30-cu illərində bolşevik cildinə girmiş erməni cəlladlarının əlindən yaxa qurtara bilməmiş, 1938-ci ildə repressiyaya uğramışdır. O, SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar Sessiyası tərəfindən 5 yanvar 1938-ci

ildə əks-inqilabi-millətçilik fəaliyyətinə görə güllələnməyə məhkum edilmiş, qərar bir gün sonra, yanvar ayının 6-da icra olunmuşdur.

İsmayıl Camalbəyovun həyat yoldaşı Güllü xanım Şərif qızı vətən xaininin həyat yoldaşı kimi SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 4 iyul 1934-cü il tarixli qərarına əsasən, 1937-ci il dekabr ayının 31-də həbs edilmişdir. SSRİ XDİK Xüsusi Müşavirəsinin 9 aprel 1938-ci il tarixli qərarı ilə cəzasını islah-əmək düşərgəsində çəkməklə 8 il müddətinə azadlıqdan məhrum edilmişdir.





# BALABƏY ƏLİBƏYOV

Naxçıvanlı diplomatlarla bağlı araşdırmalarımızı davam etdirərkən bir ad xüsusi diqqətimizi çəkmişdi. Səid Sadıqov 1995-ci ildə çapdan çıxan "Naxçıvan Muxtar Respublikası tarixindən" kitabında və ona istinadən bir neçə müəllif öz əsərində XX əsrin 20-ci illərində Naxçıvanın Qarsdakı müvəkkilinin Balabəy adlı bir şəxs olduğunu qeyd etsələr də, müəlliflərdən heç biri bu şəxsin soyadı və kimliyi haqqında məlumat verməmişdi. Digər bir qrup müəllif isə Naxçıvanda muzey işi ilə bağlı qeydlərində ilk muzeyin yaradıcısı kimi Balabəy Əlibəyovun adını çəkirdilər.

Apardığımız müqayisələr göstərdi ki, Naxçıvanın Qarsdakı müvəkkili kimi adı çəkilən şəxs məhz Balabəy Əlibəyovdur.

Qeyd edək ki, Maku, Xoy və Təbrizdən fərqli olaraq Qarsda Naxçıvan SSR-in konsulluğu yox, Rusiya Sovet Federativ Sosialist Respublikasının Qarsdakı konsulluğunun yanında müvəkkilliyi fəaliyyət göstərmişdir. Məlumat üçün deyək ki, 7 fevral 1924-cü ildə SSRİ ilə Türkiyə arasında konsulluq təşkilatlarına dair Ankarada nota mübadiləsi olmuş və bundan sonra SSRİ-nin İstanbul, İzmir, Qars, Artvin, Ərzurum və Trabzon şəhərlərində konsulluqları fəaliyyətə başlamışdır. İzmir, Qars, Artvin, Ərzurum və Trabzondakı konsulluqlar fəaliyyətlərini 1938-ci ilin fevralında dayandırmışlar.

Hələlik Qarsdakı müvəkkil Balabəyin məhz Balabəy Əlibəyov olduğunu göstərən ən dəqiq fakt filologiya elmləri doktoru Fərman Xəlilovun "Naxçıvanı öyrənən elmi cəmiyyət" kitabında əksini tapmışdır. Belə ki, müəllif Naxçıvan Muzeyi ilə bağlı tədqiqatlar apararkən ədəbiyyatşünas, "İstiqlal" ordenli, Azərbaycanın əməkdar

müəllimi, filologiya elmləri namizədi Lətif Hüseynzadənin fikirlərini öyrənmişdir. Müəllif yazır: "...B.Əlibəyovu yaxından tanıyan filologiya elmləri namizədi L.Hüseynzadənin 2005-ci il iyun ayında bizimlə söhbəti zamanı xatırladığına görə B.Əlibəyov Qarsda səfirlikdə (konsulluqda) hansısa bir vəzifədə işləyirmiş və Qarsla əlaqələri yaxşı imiş". Qeyd edək ki, Balabəy Əlibəyovun Naxçıvan Muzeyi haqqında Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimov da tədqiqat aparmış və onun muzeyçilik fəaliyyəti ilə bağlı qiymətli məlumatlar vermişdir.

Axtarışlarımız zamanı müəyyən edə bildik ki, Balabəy Əlibəyov 1855-ci ildə Naxçıvanda anadan olmuşdur. Çünki, Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın 4 aprel 1925-ci ildə tərtib olunmuş 6 nömrəli protokolunda Balabəy Əlibəyov haqqında verilən məlumatda onun 70 yaşı olduğu göstərilmişdir.

Balabəy 1903-1908-ci illərdə polis zabiti, 1908-1911-ci illərdə Qars polis idarəsinin rəsmi tərcüməçisi kimi xidmət etmişdir. 1911-ci ildə pensiyaya çıxan Balabəy Əlibəyovun təcrübəsi, yerli əhali arasında olan nüfuzu və rus, türk, fars və digər dillərə yaxşı bələd olması onu xidmətini pensiya ala-ala davam etdirməsi ilə nəticələnmiş, beləliklə o 1911-1917-ci illərdə polis idarəsində həm də tərcüməçi kimi fəaliyyət göstərmişdir. 1917-ci ildən 1920-ci ilə qədər Balabəy Əlibəyovun fəaliyyəti Urmiya şəhəri ilə bağlı olmuşdur. Bu üçillik müddətdə o Urmiyada polismeyster kimi fəaliyyət göstərmişdir.

1920-ci ildən başlayaraq Sovet müəssisələrində xidmət etmiş Balabəy Əlibəyovun Naxçıvanın Qarsdakı müvəkkili kimi fəaliyyəti 1924-cü ilin mart-aprelindən 1925-ci ilin əvvəllərinə qədərki dövrdə təsadüf edir. Hələlik onun





müvəkkil kimi fəaliyyətini nə zaman başa vurduğunu dəqiləşdirə bilməsək də, 1925-ci ilin aprelində onun artıq diplomatik fəaliyyətdə olmadığı məlumdur. Çünki, Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın 4 aprel 1925-ci ildə tərtib olunmuş 6 nömrəli protokolunda Balabəy Əlibəyov Naxçıvan SSR Xalq Maliyyə Komissarlığının maliyyə agenti kimi mühakimə edilmiş və nəticədə işdən çıxarılmışdır.

Mənşəcə köklü bəy nəslindən olan və uzun illər müxtəlif dövlət vəzifələrində çalışan Balabəy Əlibəyov həm də məhşur kolleksioner olmuş və Naxçıvanın tarixinə, etnoqrafiyasına, mədəniyyətinə aid ən müxtəlif əşyaları toplamışdır. Balabəyin hələ 1917-1918-ci illərdə Naxçıvan şəhərinin mərkəzi küçələrindən birində yerləşən mülkündə muzey təşkil etməsi onun tariximizə, mədəniyyətimizə nə qədər böyük məhəbbətlə yanaşdığının təzahürü olmuşdur. Qeyd edək ki, Nizami Rəhimovun "Balabəy Əlibəyovun Naxçıvan Muzeyi" adlı məqaləsində yazdığına görə bu mülk şəhərin mərkəzində indiki Atatürk (keçmiş Kirov) küçəsindəki və son illərədək komunal və məişət müəssisələri kombinatının yerləşdiyi binanın yerində olmuşdur. Qeyd edək ki, hal hazırda həmin ərazidə (Kapital Bankın Naxçıvan Muxtar Respublika idarəsinin yaxınlığında) yeni ictimai yaşayış binası inşa edilmişdir.

Beləliklə, 1925-ci ilin aprelində Xalq Maaliyyə Komissarlığının maliyyə agenti vəzifəsindən azad edilən Balabəy Əlibəyovun sonrakı dövr taleyində təşkil etdiyi şəxsi muzeyi əhəmiyyətli rol oynamışdır. Belə ki, Naxçıvan MSSR Xalq Komissarları Şurasının 30 oktyabr 1924-cü il tarixli qərarı ilə yaradılan Naxçıvan Tarix Etnoqrafiya Muzeyinin təşkil edilə bilməməsi Balabəy Əlibəyovun şəxsi muzeyinin respublika mülkiyyətinə keçməsi haqqında qərarla nəticələnmişdir. Naxçıvan MSSR Xalq Komissarları

Sovetinin 6 yanvar 1926-cı il tarixli qərarı ilə muzey respublika mülkiyyətinə qəbul edilmiş, Balabəy Əlibəyov isə ayda 40 manat məvacib almaqla ömürlük olaraq muzeyin direktoru təyin edilmişdir. Naxçıvanı Öyrənən Elmi Cəmiyyətin 12 fevral 1927-ci il tarixli 33 nömrəli protokolunda da muzeyin direktoru kimi Balabəyin adı çəkilmişdir.

Balabəy Əlibəyovun vəfatı ilə əlaqədar dəqiq tarixi müəyyənləşdirə bilməsək də bəzi tədqiqatçılar onun XX əsrin 40-cı illərinə qədər yaşadığı fikrindədirlər.

Beləliklə, XX əsrin 20-ci illərində Naxçıvan MSSR-in hüquqlarının daha geniş olduğu dövrdə Qarsdakı RSFSR konsulluğu yanındakı Naxçıvan müvəkkilliyində çalışmış Balabəy təkcə tariximizin və Naxçıvanda muzeyşünaslıq işinin banilərindən biri olmamış, həm də bacarıqlı və rus,fars, türk dillərinə dərindən bələd olan bir diplomat kimi bir müddət fəaliyyət göstərmişdir.





# RZA TƏHMASİB



“Həyatda nə qədər çətinliyin olsa da, heç vaxt obyektivliyi və prinsipiallığı unutma...” Bu fikir Azərbaycan teatr və kino sənətinin inkişafında əvəzsiz xidmətləri olmuş, 17-dən artıq Azərbaycan filminin yaradıcı heyətinin üzvü kimi milli kinomatoqrafiyanın inkişafında əvəzsiz xidmətlər göstərmiş Rza Təhmasibin xarakterində diplomatik fəaliyyətin cizgilərini əks etdirən məqamdır. Rza Təhmasibin bu fikri ilə tanış olarkən məşhur ingilis yazıçısı, “Diplomat” əsərinin müəllifi Ceyms Oldricin əsərindəki obrazlardan birinin dili ilə ifadə etdiyi fikri yada düşür: “Diplomatiyanın obyektivliyə öyrəşmiş elmli adamlara ehtiyacı var”.

“Unuda bilmədiklərim” adlı xatiratında bu fikri xüsusi vurğulayan Rza Təhmasib və yaxud Rza bəy Təhmasibbəyovun diplomatik fəaliyyətinin daha dəqiq öyrənilməsi, onu bu fəaliyyətə gətirən yolun gerçək cizgilərinin üzə çıxarılması, təbii ki, Rusiya və Türkiyə arxivlərində araşdırmaların aparılmasını tələb edir.

Bizə məlum olan isə onun 86 illik maraqlı və keşməkeşli ömrünün bir ilə yaxın bir dövrünü Azərbaycan SSR-in Türkiyədəki diplomatik nümayəndəliyində keçirməsidir.

Onun Azərbaycan və Türkiyə tarixinin çətin bir dövründə diplomatik nümayəndəliyin fəaliyyətinə cəlb olunması bir tərəfdən geniş dünyagörüşə, əhali arasında xüsusi nüfuza sahib olması, digər tərəfdən isə rus, ərəb, fars və türk dillərini mükəmməl bilməsi ilə bağlı olmuşdur. 1901-ci ildə o, Məmmədtağı Sidqinin açdığı "Məktəbi-tərbiyə"də dərs almağa başlamışdır. Məktəbdə ona rus, ərəb, fars dilləri, tarix və coğrafiya fənləri öyrədilmişdir. Beş il sonra "Məktəbi-tərbiyə"ni bitirərək üçsinifli Naxçıvan şəhər məktəbinə daxil olmuşdur. 1909-cu ildə oranı da başa vurmuşdur. Tarixçi Musa Quliyev deyir ki, Rza Təhmasibin bu fəaliyyətə cəlb olunmasında Rzaqulu Nəcəfovun xüsusi rolu olmuşdur.

Rza Təhmasibin ictimai-siyasi fəaliyyətinin maraqlı dövrlərindən birini 1917-1918-ci illər təşkil edir. Naxçıvanın imperialist dövlətlərinin "didişmə mövqeyi"nə çevrildiyi, ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı qanlı qırğınların törədildiyi bir dövrdə – 1917-ci ilin qışında Rza Təhmasib Naxçıvana qayıdır. Rusiyada baş vermiş burjua inqilabının təsiri ilə Naxçıvanda keçirilən izdihamlı mitinqlərin əsas təşkilatçılarından və natiqlərindən birinə çevrilir. 1918-ci ilin yazında və yayında Naxçıvanda baş verən dəhşətli hadisələr zamanı ermənilərin Nehrəmdə, Şahtaxtı və başqa kəndlərdə törətdiyi qırğınların qarşısının alınması, Naxçıvan şəhərinin talanlardan qorunması üçün o, özünümüdafiə dəstələrinin tərkibində düşmənə qarşı mübarizə aparır, şəhərin müdafiəsində fəal iştirak edir, erməni quldur dəstələrinə qarşı döyüşür.

1918-ci ildən sonra fəaliyyətini Bakı şəhərində davam etdirən Rza Təhmasib Sovet hakimiyyəti qurulduqdan sonra – 1921-ci ildə Türkiyəyə getmək, diplomatik nümayəndə-likdə tərcüməçi vəzifəsində çalışmaq təklifini alır. Bu təklifi





dəyərləndirir. Beləliklə, 1921-ci ilin sentyabr ayının əvvəllərində Tiflisdən Batuma yola düşən, buradan isə İtaliyanın "Reno" gəmisi ilə Türkiyəyə gedən 28 nəfərlik Azərbaycan SSR nümayəndə heyətinin tərkibində Rza Təhmasib də olur. Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan "Azərbaycan SSR-in Ankaradakı səlahiyyətli nümayəndəliyinin tərkibi və onların aylıq əməkhaqqı cədvəli" adlı sənəddə göstərilir ki, Rza Təhmasib o zaman Azərbaycan nümayəndəliyinin İnformasiya şöbəsinin iki əməkdaşından biri olmuşdur.

Rza Təhmasib burada nümayəndəliyin ən fəal əməkdaşlarından, Azərbaycan SSR-in Türkiyə Cümhuriyyətindəki ilk səfiri olmuş İbrahim Əbilovun yaxın köməkçilərindən birinə çevrilir. Eyni zamanda Türkiyənin mədəni həyatı ilə də yaxından tanış olur. Bu dövrdə Azərbaycan diplomatik nümayəndəliyinin təşkil etdiyi xeyriyyə tədbirlərinin, demək olar ki, böyük əksəriyyətinin ideya müəllifi və təşkilatçısı rolunda Rza Təhmasib çıxış edir. "Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət)" kitabında tədqiqatçı Fərqanə Hüseynova arxiv sənədləri əsasında nümayəndəliyin təşkil etdiyi bəzi tədbir və teatr tamaşaları haqqında məlumat vermişdir. Belə sənədlərdən biri olan "Azərbaycan Gecəsi Proqramı" ilə tanış olduğumuz zaman görürük ki, Rza Təhmasib həmin tədbirdə nümayiş etdirilən tamaşanın rejissorluğunu etməklə yanaşı, həm də burada iki rolun ifaçısı olmuşdur.

"Respublika" qəzetinin 17 fevral 2013-cü il tarixli nömrəsində "Diplomatiya tariximizdən" adlı məqaləsində müəllif Təranə Cəbiyeva da bu barədə məlumat verərkən yazır: "İbrahim Əbilovun rəhbərliyi ilə Azərbaycan səfirliyinin işçiləri xeyriyyə tədbirləri də keçirərdi. Belə

tədbirlərin keçirilməsində məqsəd Türkiyədəki yetim uşaqlara maddi yardım göstərmək, qardaş ölkədə zəngin Azərbaycan mədəniyyətini təbliğ etmək idi. O illərdə səfirliyin əməkdaşları tərəfindən "Aşıq Qərib" operası nümayiş olunur. Nadir İbrahimov, Əsgər Topçubaşov, İsmayıl İsmayılov, Mirzə Davud Rəsulzadə ifa etdikləri rolların öhdəsindən məharətlə gəlirlər. İ.Əbilov konsertdə tarın, kamançanın, tütəyin səsləndirilməsinə də diqqət yetirirdi. Xeyriyyə tədbirlərində Rza Təhmasibin rejissorluğu ilə Ə.Haqverdiyevin "Bəxtsiz cavan" pyesi də tamaşaya qoyulur".

Araşdırmalar göstərir ki, Rza Təhmasib nümayəndəliyin rəhbəri İbrahim Əbilovun vəfatından əvvəl, 1922-ci ilin avqustunda Vətənə geri dönmüş və sonrakı dövr fəaliyyətini teatr və kino sənətinin inkişafına həsr etmişdir.

Rza Təhmasibin diplomatik fəaliyyəti haqqında yazı hazırlayarkən onun həyatının sonrakı dönəminə aid diqqətimizi çəkən daha iki məqam oldu. Bu məqamların biri R.Təhmasibin siyasi hazırcavablığının, digəri isə böyük cəsarət sahibi olduğunun göstəricisi hesab edilə bilər.

XX əsrin 30-cu illərinin burulğanlarında, sovet repressiya qılıncının kəsdiyi bir dövrdə aktyor bir gün evə həyəcanlı gəlir. Geyinib tələsik evdən çıxır. Ona gec xəbər verildiyindən iclasa gecikir. Qapını açıb içəri girəndə Mircəfər Bağırovu əsəbi vəziyyətdə görür:

– Roza Tazmazyan sənsən?

Hamı birinci katibin dediklərinə gülür, Rza pərt olur. Əvvəl heç nə başa düşmür. Sonra Bağırovun əlindəki teleqramı görür:

– Yoldaş Bağırov, yəqin, teleqramı vuran ermənidir.

Birinci katibin sifəti ciddiləşir. Otağa sükut çökür. İclas qurtaranda Rza Təhmasib öyrənir ki, teleqram





Bolqarıstandan – kinostudiyadan gəlib. Bununla da, belə bir çətin dövrdə Rza Təhmasib özünün cəsarətini və hazırcavablığını nümayiş etdirmişdir.

Onun hədsiz cəsarəti ilə bağlı digər bir məqam isə məşhur Azərbaycan filmi "Arşın mal alan"ın çəkilişləri zamanı səhnələrdən birini çəkmək üçün o dövrdə Azərbaycan DTK-sının sədri Yemelyanovun Şüvəlandakı bağ evini seçməsi və bununla bağlı ona cəsarətli müraciət edərək müraciətinə müsbət cavab alması olmuşdu. Bu haqda yazan tədqiqatçılar qeyd edirlər ki, Yemelyanov Rza Təhmasibi qəbul edib xahişini dinləyir və bağında çəkiliş aparılmasına icazə verir. O, qapıdan çıxmaq istəyəndə Yemelyanov deyir: "Film yaranmasa, özündən küs". Bu hədə çəkiliş başa çatanadək onun qulaqlarından getmir.

Filmə baxış da çox ağır keçir. Uzun mübahisələrdən sonra qəbul edilən film Rza Təhmasibə də, yaradıcı heyətin bir qrupuna da Dövlət mükafatı qazandırır.

Beləliklə, Azərbaycan kinosunun və teatrımızın inkişafında əvəzsiz xidmətləri olan Rza Təhmasib ötən əsrin 20-ci illərində özünü həm də ictimai-siyasi xadim və diplomatik nümayəndəlik əməkdaşı kimi göstərə bilmişdir.

# ƏZİZ ŞƏRİF



Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan Naxçıvanla Gürcüstan arasında tarixən müxtəlif əlaqələr, xüsusən də ticarət, təhsil və mədəniyyət əlaqələri olmuşdur. Tarixi mənbələrdə qeyd olunur ki, Naxçıvan xanlığının yaradıcısı olan Heydərqulu xan Kəngərli Gürcüstanın Kartli-Kaxetiya çarlığı ilə hərbi münasibətlər qurmuş, Acarıstanla Naxçıvan arasında mövcud olmuş siyasi-mədəni əlaqələr XVIII əsrin ortalarında daha da inkişaf etməyə başlamışdır.

1916-cı ilə aid sənədlərdə naxçıvanlı yazıçı Əli Səbri Qasımovun Batumidə müsəlman-qaçqın cəmiyyətinin üzvü kimi çox fəal iştirakı öz əksini tapmışdır. Hətta yazıçı öz xatirələrində yazır ki, Batumidən Trabzona qədər ərazidə yaratdığımız xeyriyyə cəmiyyətinin fondundan müsəlman qaçqınlarına müxtəlif yardımlar göstərirdik. Naxçıvanlı digər bir şair – Ələkbər Qərib də bu cəmiyyətdə təmsil olunmuşdur. Araşdırmalardan məlum olur ki, həmin illərdə həmyerlimiz polkovnik İbrahim bəy Qədimov Ərdəhan və Batumidə hərbi fəaliyyət göstərmiş, zorakılığa məruz qalan dinc müsəlmanların mənafeyini qorumuşdur. Eyni zamanda XIX əsrin sonu, XX əsrin əvvəllərində naxçıvanlı milyonçu Mirzə Heydər Nəsirbəyovun Batumi ilə yaxından ticarət əlaqələri





olmuşdur. Həmin vaxt Acarıstanın pambığa olan tələbatının bir hissəsi Naxçıvan pambığı ilə ödənilmiş, bu və digər məhsullarımız Batumidən Trabzona aparılmaqla Avropa bazarlarında da satılmışdır.

Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra da bu əlaqələr müxtəlif səviyyələrdə davam etmişdir. Naxçıvan tarixinin ən keşməkeşli dövrlərindən biri hesab edilən 1920-1924-cü illərdə isə bir müddət Naxçıvan SSR-in İran və Türkiyə kimi xarici dövlətlərlə yanaşı, artıq sovet hakimiyyətinin qurulduğu Qafqaz respublikalarında da nümayəndəlikləri fəaliyyət göstərmişdir. Səid Sadıqov "Naxçıvan Muxtar Respublikası tarixindən" kitabında yazır ki, XX əsrin 20-ci illərində Naxçıvanın Bakı, Tiflis və İrəvan şəhərlərində də nümayəndəlikləri yaradılmışdır. 1922-ci ilin yanvar ayında Naxçıvan SSR-in Gürcüstanda nümayəndəsi təyin edilən şəxs isə tənqidçi, ədəbiyyatşünas, tərcüməçi kimi tanıdığımız Əziz Şərif olmuşdur. 1895-ci il martın 28-də Naxçıvan şəhərində anadan olan Əziz Şərif Məmməd Tağı Sidqinin Naxçıvanda açdığı "Məktəbi tərbiyyə"də təhsil almış, burada oxuduğu dövrdə qismən fars və rus dillərinə yiyələnmişdi. Sonra isə o təhsili Cəlil Məmmədquluzadənin Tiflisdə açdığı pansion məktəbində davam etdirmiş, pansion bağlandıqdan sonra Tiflisdə bir rus ailəsində yaşamış və məhz bu dövrdə rus dili ilə yanaşı, fransız dilini də öyrənmişdir. Əziz Şərif "Keçmiş günlərdən" adlı xatirələrində bu barədə yazır: "Tiflisdə pansion bağlananda Mirzənin (Cəlil Məmmədquluzadə - red.) məsləhəti və köməyi ilə atam məni bir rus ailəsinə tapşırdı. Bu ailə üç qadından ibarət idi, evləri də Mixaylovski küçəsində Müctəhid bağının yaxınlığında idi. Qoca qadın iki müəllimə qızı ilə yaşayırdı. ...Rus qadınlarının evində mənimlə həm rusca, həm də fransızca danışırdılar. ...Yadımda qalan budur ki, bu müddətdə mən

rusca və fransızca xalis danışmağı, bu dilin ikisində də sərbəst yazıb oxumağı öyrənmişdim".

Əziz Şərifin qeydlərindən o da aydın olur ki, o 1906-cı ilin yazına qədər Tiflisdə qalmış, 1905-ci ildən başlayaraq çarizmin dəstəyi ilə ermənilərin Azərbaycanın müxtəlif şəhərlərində, o cümlədən Naxçıvanda azərbaycanlılara qarşı törətdikləri qanlı qırğınlar onun Naxçıvana qayıtmasına səbəb olmuşdur. Sonralar o bir müddət təhsilini İrəvanda fəaliyyət göstərən İbadulla bəy Muğanlinski və Cabbar bəy Məmmədovun pansionunda davam etdirmişdir. 1908-ci ildən yenidən Tiflisdə oxumağa başlayan Əziz Şərif, 1915-1917-ci illərdə Moskva Kommersiya İnstitutunda təhsil almış, beləliklə də fransız, rus, fars, gürcü dillərini öyrənmişdir.

